RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 147 (9314) 16 İYUL 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Prezident İlham Əliyevin Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti və Ermənistanın baş naziri ilə üçtərəfli görüşü olub

◆ Prezident İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri





İyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə üçtərəfli görüşü olub.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh prosesi üzrə danışıqların davam etdirilməsi, sərhədlərin delimitasiyası, nəqliyyat kommunikasiyalarının açılması, Ermənistanın hərbi birləşmələrinin Azərbaycan ərazilərindən çıxarılması və qanunsuz hərbi birləşmələrin tərksilah edilməsi ilə bağlı fikir mübadiləsi aparılıb. Brüsseldə keçirilən bu danışıqlar Vaşinqton görüşünün davamı kimi qiymətləndirilib.

## Brüsseldə sülhə doğru daha bir addım atıldı



**İyulun 15-də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında sülh müqaviləsi üzrə aparılan danışıqların növbəti raundu baş tutdu.**

Buna qədər, yəni 44 günlük Vətən müharibəsindəki zəfərimizdən sonra liderlər Brüsseldə 5 dəfə görüşmüşdülər. Belçikada sonuncu üçtərəfli danışıqlar bu il mayın 14-də reallaşmışdı. Dünənki isə sayca 6-cı görüş oldu.

Ölkə rəhbərlərinin sülh danışıqları sonuncu dəfə iyunun 1-də Kişineuda aparılmışdı. Prezident İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan, Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel arasında keçirilən üçtərəfli, eləcə də Almaniya Kansleri Olaf Şolts və Fransa Prezidenti Emmanuel Makronun da qatıldığı beştərəfli qeyri-rəsmi görüşünü də sülh prosesinin tərkib hissəsi kimi dəyərləndirmək olar. Həmin görüşlərdə heç bir qərar qəbul olunmasa da, tərəflər bunu iyulun 15-də Brüsseldə keçiriləcək növbəti toplantıya hazırlıq kimi qiymətləndirmişdilər.

→ 2

## İnkişafın uğurlu yolları

### Bu, imkan verir ki, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərini daha da genişləndirək, hərbi qüdrətimizi artıraq

Məlumat üçün bildirək ki, Qarabağa, Şərqi Zəngəzura Böyük qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması və əhalinin bu məskənlərə köçürülməsi nəzərdə tutulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunlardan 30 yaşayış məntəqəsinin - 8 şəhərin, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında şəxsən iştirak edib.

Qarabağın, Şərqi Zəngəzurun mədəni həyatının bərpasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da çox böyük rolu var. Fond erməni vandallarının təxminən 30 illik işğal dövründə viran qoyduqları məscidləri, mədəniyyət abidələrini yenidən tikir, yaxud da əsaslı şəkildə bərpa edir, onları həyata qaytarır.

→ 2

## "Şahdəniz"in ardınca "Abşeron"

### Yeni mənbələrdən qaz hasil edildikcə Azərbaycanın önəmi də artır

2020-ci il sentyabrın 19-da Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak etdi. Belə ki, yataqda istismar olunan platformanın dörd əsas dayaq bloku və digər sualtı qurğular bu zavodda "BOS Şelf" şirkəti tərəfindən tikilmişdir. Tikinti işlərinə ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklarının, körpülərin, estakadaların, məşəl sisteminin, sualtı qurğuların, boru xəttinin, modulların inşası və quraşdırılması daxil idi. "Abşeron" layihəsi üzərində iş zamanı "BOS Şelf" şirkəti Azərbaycanda ilk dəfə bütün mühəndislik, təchizat, tikinti, quraşdırma işlərini həyata keçirməklə layihənin tam təminatla təhvil verilməsi üsulunu tətbiq etmişdir.

İndi bunlar reallığa çevrilir. Artıq "Abşeron"un işlənməsinin İlkin Hasilat Sxemi mərhələsi üzrə hasilata başlanıb. SOCAR-ın bu barədə yaydığı məlumatda bildirilir ki, İHS mərhələsi sualtı hasilat quyusunu "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

→ 6

## "Türkiyə xalqının zəfərini öz zəfərimiz, sevincini öz sevincimiz, hüznünü öz hüznümüz olaraq paylaşdıq"



### Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident!

Əziz Qardaşım!

Türkiyədə 15 İyul hadisələrinin yeddinci ildönümündə dövlət çevrilişi cəhdinin qarşısının alınması yolunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edirik.

Türkiyə Respublikasına qarşı yönəlmiş bu xain plan ölkənizin tarixində çətin sınaq idi. Bu sınaqdan alnıaçıq və üzüağ çıxan Türkiyə xalqı bütün dünyaya iradəsinin sarsılmazlığını, mətinliyini, dövlətçiliyə və demokratiyaya sadiqliyini bir daha bariz şəkildə nümayiş etdirdi. Həmin ağır gündə çiyin-çiyinə vermiş Türkiyə xalqı və dövlətinin qətiyyəti sayəsində, şəhidlərimizin qanı və canı bahasına əldə edilmiş bu zəfər xalqınızın bənzəri olmayan mübarizlik və yenilməzlik ruhunu, Vətənə sevgisini təsdiq etdi. Həmrəyliyin və milli birliyin rəmzi olaraq təsis olunmuş "Demokratiya və Milli Birlik Günü" Türkiyə dövlətçiliyinin tarixində böyük şərəf günü olaraq qalacaqdır.

Heç şübhəsiz ki, əsl qəhrəmanlıq dastanının yazıldığı o gün qardaş Türkiyə xalqının Sizə olan hədsiz inam və etimadın aşkar təzahürü olaraq ətrafınızda sıx birləşməsi, Sizin çağırışınıza dərhal cavab verməsi xain niyyətlərin qarşısına aşılmaz sipər çəkərək ölkənizi böyük faciələrdən xilas etdi.

Azərbaycan xalqı və dövləti bu mücadilədə ilk anlardan qardaş Türkiyə dövlətinin və xalqının yanında olmuş, ölkənin Konstitusiya quruluşuna, legitim hakimiyyətinə qəsd edən Vətən xainlərini birmənalı şəkildə pisləmişdi. Biz bu hadisələrdən daha da güclənərək çıxmış Türkiyə xalqının zəfərini öz zəfərimiz, sevincini öz sevincimiz, hüznünü öz hüznümüz olaraq paylaşdıq və bir millət, iki dövlət olduğumuzu bir daha əyani şəkildə sübut etdik.

Əminəm ki, ən böyük sərvətimiz olan sarsılmaz Azərbaycan-Türkiyə qardaşlığını, birliyini və həmrəyliyini qoruyub saxlamaq və gələcək nəsillərə ərməğan etmək, strateji müttəfiqliyimizi hərtərəfli inkişaf etdirmək və möhkəmləndirmək naminə birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Hörmətli cənab Prezident, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2023-cü il*

## Prezident İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belçika Krallığına işgüzar səfəri iyulun 15-də başa çatıb.

## Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla görüşdən sonra mətbuata açıqlama verib

Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel iyulun 15-də Brüsseldə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan ilə keçirilmiş görüşün yekunlarına dair mətbuata açıqlama verib.

AZƏRTAC xəbər verir ki, Şarl Mişel açıqlamasında deyib:

- Prezident Əliyev və baş nazir Paşinyanla altıncı görüşü indicə yekunlaşdırdıq. Bizim müzakirələrimiz yenə də səmimi, dürüst və məzmunlu oldu. Görüşümüz mayın əvvəlindən Ermənistan və Azərbaycan liderləri, baş nazirlərin müavinləri və xarici işlər nazirləri arasında Brüsseldə, Kişineuda, Vaşinqtonda, Moskvada, həmçinin sərhəddə intensiv və məhsuldar keçirilən yüksəksəviyyəli görüşlər silsiləsinin davamı oldu.

Biz Ermənistan ilə Azərbaycan arasında danışıqların ən əhatəli və mürəkkəb mərhələlərindən birini keçirik. Mən liderləri sülh prosesinə güclü sadiqliklərinə görə təqdir etdim. Mən onları normallaşma yolunda qəti və dönməz irəliləyişi təmin etmək üçün daha cəsarətli addımlar atmağa çağırdım. Baxmayaraq ki, görüşümüz gərginliyin artması fonunda baş tutdu, mən siyasi müzakirələrdə və səylərdə mühüm irəliləyiş olduğunu qeyd etdim.

→ 2

## Ermənistanın əsassız iddiaları bir daha ifşa olundu

### Beynəlxalq Ədalət Məhkəməsi bu dəfə də hüququn aliliyini müdafiə etdi

Beynəlxalq Ədalət Məhkəməsi bu qərarı ilə hüququn aliliyini müdafiə edib. Bu bir daha sübut edir ki, Azərbaycanın atdığı addımlar beynəlxalq hüquq normaları çərçivəsindədir. Ermənilərin iddiaları isə onların işğalçı mövqeyini müdafiə etməkdən başqa bir şey deyildi. Onların iddiaları tamamilə yalan və böhtandır.

Bu gün ABŞ və Avropa İttifaqı daxil olmaqla, demək olar ki, əksər dövlətlər Ermənistana açıq mesaj verirlər ki, Beynəlxalq Ədalət Məhkəməsinə ünvanladıqları bu cür müraciətlərin perspektivi yoxdur. Ona görə də bədnam qonşumuz artıq real addımlar atmalı, dəst-xətinə uyğun olmasa da, ədalətli davranış nümayiş etdirməlidir.

Qarabağ və Şərqi Zəngəzur beynəlxalq hüquqa əsasən Azərbaycanın suveren əraziləridir. Həmin ərazilərdə yaşayanlar da Azərbaycan vətəndaşlarıdırlar. Belə olan halda, Ermənistan Azərbaycanın şərtlərini qəbul etməyə məcburdur. Anlamalıdır ki, vaxt keçdikcə bu davranışlarından, Beynəlxalq Ədalət Məhkəməsinə ünvanladığı əsassız müraciətlərdən ən çox əziyyət çəkən elə Ermənistanın özü olacaq.

→ 3

# Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyanla görüşdən sonra mətbuata açıqlama verib

*Əvvəli 1-ci səh.*



Biz gündəlikdə olan bütün məsələləri müzakirə etdik.

**Suverenlik və ərazi bütövlüyü.** Ermənistan və Azərbaycan liderləri Ermənistanın 29,8 min kvadratkilometr, Azərbaycanın isə 86,6 min kvadratkilometr olmaqla ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşdıqlarını bir daha qəti şəkildə təsdiqlədilər.

**Sərhədlərin delimitasiyası.** Hər iki lider delimitasiya üçün siyasi çərçivə kimi 1991-ci il "Alma-Ata Bəyannaməsi"nə birmənalı sadiqliklərini bir daha təsdiq etdilər.

Mən hər iki sərhəd komissiyasının 12 iyul tarixli iclasını alqışladım. Bu komissiyaların nizamnaməsi və sərhədlərin müəyyənləşdirilməsinin əsasları ilə bağlı müzakirələrdə irəliləyiş əldə edilib.

Ən mühümü isə odur ki, liderlər komissiyaların işini intensivləşdirmək və sürətləndirmək barədə razılığa gəliblər.

**Kommunikasiyalar.** Bu məsələyə gəldikdə, tərəflər son iki ay ərzində regionda nəqliyyat və iqtisadi əlaqələrin bərpasına yönəlmiş müzakirələrdə də aşkar irəliləyişə nail olublar. Biz suverenlik, yurisdiksiya və qarşılıqlılıq prinsiplərinə cavab verən gələcək nəqliyyat razılaşmalarının şərtlərini müzakirə etdik.

Dəmir yolu xəttinin tikintisinə dərhal başlanılmalıdır. Avropa İttifaqı maliyyə töhfəsi verməyə hazır olacaq. Bəzi detallar hələ də aydınlaşdırma tələb edir, lakin bu mövzuda indi mövqelər yaxınlaşır və variantlar fəal şəkildə araşdırılır.

**Humanitar yardımlar.** Qarabağın erməni əhalisinin vəziyyətini, Laçın dəhlizi ətrafında vəziyyəti müzakirə etdik. Aydındır ki, mövcud vəziyyət dayanıqlı deyil və heç kimin marağına uyğun gəlmir. Vəziyyətin normallaşmasına kömək üçün mümkün konkret addımları da müzakirə etdik.

Mən Laçın yolunun açılmasının vacibliyini vurğuladım. Mən Azərbaycanın Ağdamdan humanitar yardımları təmin etmək istəyini də qeyd etdim. Mən hər iki variantı vacib hesab edirəm və əhalinin ehtiyaclarının təmin olunması üçün hər iki tərəfdən humanitar yardımların çatdırılmasını dəstəkləyirəm.

Mən həmçinin Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən tibbi təxliyənin bərpasını da alqışladım.

**Hüquqlar və təhlükəsizlik.** Yerli əhalinin ilk növbədə hüquqlarının və təhlükəsizliyinin təmin olunmasına ehtiyacı var.

Mən bu kontekstdə Avropa İttifaqının Bakı ilə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətində yaşayan ermənilərin nümayəndələri arasında birbaşa dialoqu dəstəklədiyini bildirdim.

Bu dialoq bütün tərəflər üçün çox vacib olan etimadı təmin etməlidir.

**Saxlanılanlar.** Biz saxlanılanlar məsələsini də müzakirə etdik. Liderlər alicənablıq anlayışına sadiqliklərini bir daha təsdiqlədilər və bununla da ehtiyatsızlıqdan qarşı tərəfə keçən əsgərlərin azad olunması asanlaşacaq.

Mən hər iki tərəfdən saxlanılanların azad edilməsinin tərəfdarı olduğumu bildirdim.

İtkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi və minatəmizləmə üzrə əməkdaşlığın genişləndirilməsinin vacibliyi də müzakirə olundu. Mən bir daha tərəfləri mümkün qədər çox məlumat mübadiləsi aparmağa çağırdım.

**Hadisələrin inkişafı.** Biz razılaşdıq ki, komandalarımız bu gün müzakirə olunan məsələlərin daha sonra konkret inkişafını təmin etmək üçün sıx təmasda olacaqlar. Real inkişaf isə yaxın gələcəkdə atılmalı olan növbəti addımlardan asılıdır.

Əsas prioritet isə odur ki, sülh və normallaşma danışıqlarına lazımi şəraiti təmin etmək üçün zorakılıq və sərt ritorika dayandırılmalıdır.

Mən həmçinin Ermənistan və Azərbaycan liderlərinə yaydan sonra Brüsseldə növbəti görüşə dəvət etmək niyyətimi bir daha bildirdim. Bundan əlavə, "Avropa siyasi birliyi"nin növbəti Zirvə toplantısı çərçivəsində Qranadada Fransa və Almaniya liderlərinin də iştirakı ilə beştərəfli görüş təklifimi də diqqətə çatdırdım.

# Brüsseldə sülhə doğru daha bir addım atıldı

*Əvvəli 1-ci səh.*

İyulun 14-də Brüsselə səfər edən İlham Əliyev Avropa İttifaqı Şurasının mənzil-qərargahında qurumun prezidenti Şarl Mişellə görüşüb. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması istiqamətində Şarl Mişelin göstərdiyi səylərə görə təşəkkürünü ifadə edən dövlət başçısı Brüssel formatının səmərəli olduğunu vurğulayıb. Söhbət zamanı İlham Əliyev, Şarl Mişel və Nikol Paşinyanın iştirakı ilə keçiriləcək üçtərəfli danışıqlar, həmçinin Ermənistanla Azərbaycan arasında sülh danışıqları ilə bağlı fikir mübadiləsi aparılıb.

Dünən liderlər arasında keçirilən üçtərəfli görüşü də sülhə doğru atılan növbəti addım kimi qiymətləndirmək olar. Görüşlə bağlı mətbuata açıqlama verən Şarl Mişel bildirib ki, görüş çox məhsuldar keçib: "Biz altıncı görüşü yenicə başa vurduq. Bu, çox məhsuldar oldu. Biz səylərimizdə çox mühüm dövr keçirik".

Onun sözlərinə görə, görüş zamanı iki ölkə liderləri 1991-ci il "Almatı Bəyannaməsi"nə, eləcə də ərazi bütövlüyü və suverenliyinə sadiqliklərini təsdiqləyiblər.

Şarl Mişel bildirib ki, Azərbaycan və Ermənistan liderləri Brüsseldə daha bir görüş keçirəcəklər.

Tərəflər oktyabrda Avropa Siyasi Birliyinin sammiti çərçivəsində İspaniyanın Qranada şəhərində keçiriləcək görüşə paralel olaraq yaydan sonra Brüsseldə növbəti görüşün keçirilməsi barədə razılığa gəliblər.

Liderlər arasında həmçinin sülh sazişinin əldə edilməsi üçün danışıqların intensivləşdirilməsi, habelə sərhədlərin delimitasiyası və nəqliyyat dəhlizlərinin açılması üzrə işlərin aparılması barədə razılıq əldə olunub.

Sülh danışıqları ilə bağlı əsas amil Azərbaycan tərəfindən irəli sürülmüş 5 məlum prinsipin Hayastan tərəfindən qəbul edilməsidir. Bu prinsiplər beynəlxalq hüququn normalarının təməl prinsipləridir. Ona görə də Azərbaycan əvvəlcədən bəyan edib ki, məhz bu prinsiplər üzərində ölkələrin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı və digər prinsiplər əsasında danışıqlar mümkündür və sülh müqaviləsi imzalana bilər.

Artıq hər kəsə bəllidir ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Bu, tərəflər arasında Brüssel, Praqa və Soçidə keçirilən görüşlərdə də təsdiqini tapıb. Belə ki, həmin görüşlərdə Ermənistan Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini rəsmən qəbul edib. Hayastan təsdiq edib ki, Azərbaycan ilə Ermənistan arasında sərhədlər - 1991-ci ilin "Alma-Ata" Bəyannaməsi əsasında həll olunmalıdır. Bu da bir daha göstərir ki, müttəfiq respublikalar arasında olan sərhədlər dövlət sərhədləri sayılır.

Beləliklə, bu addımı atmaqla Ermənistan rəsmən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyıb. Görünən odur ki, Ermənistan prinsip etibarilə Azərbaycanın məsələyə yanaşması ilə razıdır.

Mayın 14-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında üçtərəfli növbəti görüşdə də Azərbaycan və Ermənistan liderləri bir sıra məsələlərdə razılığa gəliblər. Liderlər 1991-ci ilin "Alma-Ata Bəyannaməsi"nə müvafiq olaraq Ermənistanın 29,800 kvadratkilometr, Azərbaycanın 86,600 kvadratkilometr ərazisinin toxunulmazlığına sadiqliklərini təsdiq ediblər.

Ümumiyyətlə, postmünaqişə dövründə bütün görüşlərdə, danışıqlarda İlham Əliyev humanizm və ədalət prinsiplərinə sadiq lider kimi regionda sülhün və əməkdaşlığın təmin olunması üçün aydın siyasət yürütməklə nümunə sərgiləyir.

Onu da vurğulayaq ki, son 3 ayda həm ölkə liderləri, həm XİN başçıları arasında Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişineuda keçirilən görüşlərdəki müzakirələr, əldə olunan razılıqlar, tərəflərin sülhə bir qədər də yaxınlaşdığını deməyə əsas verir. Ona görə də bu ilin sonuna qədər Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanacağına ümidlər böyükdür.

İyulun 11-də Prezident İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı bu məsələyə toxunaraq bildirib ki, Azərbaycanın sülh danışıqları ilə bağlı mövqeyi aydındır, məntiqlidir və beynəlxalq hüquqa əsaslanır. İlham Əliyev hesab edir ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər. Hər halda belə bir imkan yaranıb: "Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksəksəviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük. Ancaq yenə də deyirəm, hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir".

Əsas məqamlardan biri də odur ki, Ermənistan tərəfinin mövqeyində müsbətə doğru hərəkət var. Əgər məğlub ölkə keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək ölkəmizin ərazisinin parametrlərini, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb. Bu da təbii ki, müsbət hal kimi qiymətləndirilməlidir. Prezidentin də söylədyi kimi, indi sıra eyni sözlərin kağız üzərində də öz təsdiqini tapmasıdır. Hər halda Azərbaycan bu istiqamətdə səylərini davam etdirəcək.

Göründüyü kimi, müharibənin qalib tərəfi olmasına rəğmən Azərbaycan məğlub ölkəyə qurtuluş yolu, hər iki tərəfi qane edəcək sülh modeli təklif edir. Hayastan, nəhayət, anlamalıdır ki, boş yerə Qarabağın erməni əhalisi üçün ayrıca "status" iddiasını irəli sürməyin heç bir mənası yoxdur.

Azərbaycan Prezidenti bununla bağlı son sözünü mayın 28-də Laçında bəyan edib. İlham Əliyev deyib ki, "miatsum"un, separatizmin kitabı bağlanıb, müstəqillik xülyası da statusun dalınca cəhənnəmə göndərilib. Bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi Azərbaycanın tarixi, hüquqi torpağıdır. Yaxşı olar ki, bu reallığı orada yaşayan erməniəsilli vətəndaşlar da tezliklə başa düşsünlər və xam xəyallardan ayrılaraq özləri gəlib Azərbaycan bayrağı altında yaşamaq üçün addım atsınlar. Gec-tez, bu da reallaşacaq!

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# İnkişafın uğurlu yolları

## Bu, imkan verir ki, işğaldan azad edilmiş ərazilərdə quruculuq işlərini daha da genişləndirək, hərbi qüdrətimizi artıraq



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə sosial-iqtisadi yekunlarla bağlı keçirilən yarımillik, illik müşavirələr, dövlət rəhbərimizin bu toplantılardakı çıxışlarının hər biri ictimaiyyət tərəfindən maraqla qarşılanır.

Bu toplantılar, ilk növbədə hökumətin ictimaiyyət qarşısında hesabatlılıq ənənəsinə sadiq qaldığını göstərir. Digər tərəfdən, belə müşavirələrdə müvafiq dövrün nəticələri dəyərləndirilir. Uğurlu məqamlar diqqətə çatdırılır, eyni zamanda hansısa sahədə nöqsan və çatışmazlıqlar varsa, onun təhlili aparılır, aradan qaldırılması üçün müvafiq qurumlara göstərişlər verilir. Eyni zamanda bu müşavirələr Azərbaycanın gələcəyinə strateji baxışdır. Ölkəmizin sosial-iqtisadi inkişaf yolundan haradan-hara gəldiyini və bundan sonrakı mərhələlərdə hansı istiqamətə irəliləməli olacağını, yeni strateji dövrdə bizi hansı nailiyyət və çağırışların gözlədiyini bu müşavirələrdən öyrənmək olar. Hökumətin apardığı siyasətin insanlara aydın izahı, həyata keçirilən tədbirlərin, atılan addımların mahiyyətinin düzgün çatdırılması baxımından da bu müşavirələrin önəmi çox böyükdür.

Hazırda informasiyanın cəmiyyət həyatındakı rolu artıb. Hər birimiz xüsusilə sosial şəbəkələr vasitəsilə saysız-hesabsız xəbərlərlə, fikir və rəylərlə əhatə olunmuşuq. Belə bir mühitdə hökumətin apardığı siyasət haqqında məlumatları, təhlilləri, izahları ən mötəbər mənbədən eşitmək vətəndaşlarımızda aydın qənaətlər formalaşdırır, bu siyasətə xalq dəstəyini daha da möhkəmləndirir, Azərbaycanın uğurlarını gözü götürməyən hansısa qüvvələrin manipulyasiya cəhdlərinin qarşısını alır.

2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə, Azərbaycan Prezidenti İlham Əliyevin bu toplantıdakı çıxışı da böyük maraqla qarşılandı. Dövlətimizin rəhbəri ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi məsələlərini ötən 6 ay ərzində qarşıda duran əsas vəzifələr kimi müəyyənləşdirdi. Təqdim olunan nəticələr göstərdi ki, Azərbaycan hökuməti ötən dövr ərzində bu istiqamətlərin hər birini həssaslıqla diqqətdə saxlayıb və həmin istiqamətlərdə əsaslı irəliləyişlərə nail olunub.

### Böyük qayıdış davam edir

Azərbaycanın sosial-iqtisadi inkişafı fonunda demək olar ki, bütün sahələrdə uğurlar əldə olunmuşdur. 2023-cü ilin sosial-iqtisadi inkişaf reallıqları barədə dövlət rəhbərimizin çıxışının ən mühüm istiqamətlərindən birincisi Vətən müharibəsindəki tarixi zəfərimizdən dərhal sonra Qarabağda, Şərqi Zəngəzurda başlanan və bu gün də uğurla davam etdirilən bərpa-quruculuq tədbirləridir. Azərbaycan bu irimiqyaslı prosesi heç kimin maddi yardımına, maliyyə dəstəyinə bel bağlamadan yalnız öz imkanları hesabına həyata keçirir. Ölkəmiz bütün gücünü, resurslarını işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması istiqamətində səfərbər edib. Odur ki, müharibə bitdikdən sonrakı iki il yarım ərzində görülən işlərin miqyası heyranlıq doğurur. Doğma yurda Böyük qayıdış proqramı artıq başlanıb və bu proses uğurla davam etdirilir.

Əhali işğaldan azad olunmuş ərazilərə tədricən, mərhələli şəkildə qayıdır. Ən yüksək səviyyədə tikilərək müasir infrastrukturla təmin edilmiş yaşayış yerlərinə köçürülməklə yanaşı, əhalinin məşğulluğu məsələləri ilə bağlı da addımlar atılır. Yenidən qurulmaqda olan Laçın rayonuna artıq böyük köç başlanıb, yaxın günlərdə bu məkana qayıdış daha geniş miqyasda davam etdiriləcək.

Məlumat üçün bildirək ki, Qarabağa, Şərqi Zəngəzura Böyük qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması və əhalinin bu məskənlərə köçürülməsi nəzərdə tutulub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunlardan 30 yaşayış məntəqəsinin - 8 şəhərin, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında şəxsən iştirak edib.

Qarabağın, Şərqi Zəngəzurun mədəni həyatının bərpasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da çox böyük rolu var. Fond erməni vandallarının təxminən 30 illik işğal dövründə viran qoyduqları məscidləri, mədəniyyət abidələrini yenidən tikir, yaxud da əsaslı şəkildə bərpa edir, onları həyata qaytarır.

İşğaldan azad edilmiş ərazilərimizin bərpası, onların müasir inkişaf axarına qovuşdurulması bu gün dövlətimiz üçün əsas prioritetdir. Amma bu, qətiyyən, digər bölgələrimizdə inkişaf proseslərinin səngiməsi, regionlarımızın diqqətdən kənarda qalması anlamına gəlmir. Elə Azərbaycanın iqtisadi gücü, qüdrəti həm də ondadır ki, ölkəmizdə inkişaf prosesləri paralel şəkildə, bir-biri ilə həmahəng aparılır və onların biri digərini uğurla tamamlayır. Ölkəmizdə reallaşdırılan bütün infrastruktur layihələri Azərbaycan Respublikası Prezidentinin şəxsən nəzarətindədir. Dövlət rəhbərimiz Qarabağ, Şərqi Zəngəzur kimi digər bölgələrimizə də mütəmadi səfərlər edir, görülən işləri diqqətdə saxlayır, tapşırıq və tövsiyələrini verir. İqtisadi layihələrin miqyası bütün ölkəni əhatə edir.

### Güclü olmaq zəruridir

Sosial-iqtisadi inkişaf prosesləri, işğaldan azad edilmiş bölgələrimizdə aparılan bərpa-quruculuq işləri, bütün regionlarımızda həyata keçirilən infrastruktur layihələri ilə yanaşı, ölkəmiz üçün ən mühüm məsələlərdən biri, təbii ki, müdafiə və təhlükəsizlikdir. Bunun prioritetliyini nəzərə alaraq dövlətimiz hərbi qüdrətini getdikcə artırır, regionda böyük gücə çevrilir. Nə qədər acı olsa da, etiraf edək ki, biz hazırda beynəlxalq münasibətlər sistemində qaydaların pozulduğu, beynəlxalq hüququn işləmədiyi, beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoyulmadığı, bu sahədə təminatçı rolunda çıxış edən böyük dövlətlər tərəfindən hüquqların pozulduğu mürəkkəb bir dünyada yaşayırıq. Belə bir dünyada güclü olmaq vacibdir, onun alternativi yoxdur. Çünki nə qədər güclü olsan, bir o qədər hörmət göstərəcəklər, güclə hesablaşıb, gücdən çəkinəcəklər. Azərbaycanın öz hərbi qüdrətini getdikcə artırması da seçim deyil, zərurətdir. Dövlətimiz öz müstəqilliyini, inkişaf seçimlərini, yüksək həyat tərzini, ərazi bütövlüyünü qorumaq üçün daha da güclü olmalıdır. Buna görə müharibə başa çatandan sonra da bu istiqamətdə ardıcıl addımlar atıldı və bu proses davam etdirilməkdədir. Azərbaycan Ordusunun modernləşdirilməsi məqsədilə islahatlar yüksək səviyyədə həyata keçirilir, ordumuz müasir silah-sursat, hərbi texnika ilə təmin olunur. Bu gün müstəqil Azərbaycan dövləti siyasətini öz maraqlarına uyğun aparır. Kiminsə qarşısında əyilmir və heç bir qüvvənin iradəsinə tabe olmur. Buna əsas yaradan başlıca amil isə, təbii ki, Azərbaycanın gücü, qüdrətidir. Bu məsələyə diqqət yetirən ölkə rəhbəri müşavirədə çıxışında vurğuladı: "Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz. Əksinə, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi qoruya bilmişik və maraqlarımızı qoruya bilmişik... Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq".

Torpaqlarımızın bir hissəsinin təxminən 30 illik işğalı dövründə məsələnin sülh yolu ilə həlli məqsədilə bütün imkanlardan istifadə etməyə çalışan Azərbaycan Ermənistanla münasibətlərin normallaşması üçün bu gün də sülh prinsiplərinə sadiqdir. Azərbaycan bütün sülh danışıqlarında iştirak edir və rəsmi Bakının bu istiqamətdə aydın, məntiqli addımları beynəlxalq hüquq normalarına əsaslanır. Prezident çıxışında son dövrlərdə danışıqlar prosesində müsbətə doğru irəliləyişlərin olmasını da nəzərə çatdırdı. Ermənistanın Qarabağ və anklav kəndlər də daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini tanıması, dövlət sərhədlərimizi qəbul etməsi bunun əlamətləridir. Onu da qeyd edək ki, Ermənistan bu mövqeyə heç də öz xoşu ilə gəlməyib, Azərbaycanın həyata keçirdiyi ardıcıl, prinsipial siyasi xətt, göstərdiyi təzyiqlər rəsmi İrəvanı belə vacib addımların atılmasına sövq edib.

Azərbaycan Cənubi Qafqaz regionunun əbədi sülh, dayanıqlı inkişaf, xoş rifah məkanına çevrilməsi üçün bütün istiqamətlərdə böyük əzmlə iş aparır. O cümlədən Ermənistanın işğalı altında olmuş ərazilərdə mövcud ekoloji problemlərin həlli, Ermənistanın Qarabağı və Şərqi Zəngəzuru ekoloji fəlakət zonasına çevirmək siyasətinin nəticələrinin aradan qaldırılması üçün ardıcıl tədbirlər həyata keçirir. Əfsuslar olsun ki, Ermənistan bu cəhdlərindən hələ də əl çəkmir. Qonşu ölkənin Azərbaycanla sərhəddə metallurgiya zavodu inşa etməsi buna bir nümunədir. Belə bir layihə Espo Konvensiyasının tələblərinə ziddir. Prezident İlham Əliyev müşavirədə bu məsələyə də toxunaraq qətiyyətlə bildirdi: "Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar. Yəni bütün bu peyk görüntüləri bizdə var. İndi transsərhəd təhlükələri mütləq nəzərə alınmalıdır və Azərbaycanın burada sərgilədiyi mövqeyi yenə də beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslanır, o cümlədən Espo Konvensiyasına, bunu hər kəs internetdə açıb baxa bilər. O göstərir ki, transsərhəd çayların çirkləndirilməsi və ölkələrin sərhədlərinə yaxın müəssisələrin, ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik".

Bu kontekstdə Azərbaycan ictimaiyyətinin etirazları, qeyri-hökumət təşkilatlarının beynəlxalq qurumlara, Ermənistanın rəsmi orqanlarına müraciətləri regionumuz naminə gələcək ekoloji fəlakətlərin qarşısının vaxtında alınması üçündür.

### Vətəndaş məsuliyyəti

Azərbaycan dövləti hər zaman ərazilərimizdə ekoloji durumu təhdid edən hallara, ətraf mühit üçün ziyanlı layihələrə qarşı da prinsipial mövqe tutub. Azərbaycan Prezidenti müşavirə zamanı bu mövqeyi bir daha nümayiş etdirdi. Gədəbəyin Söyüdlü kəndi ərazisindəki qızıl mədəninin fəaliyyəti ilə bağlı baş vermiş hadisənin qəbuledilməzliyini diqqətə çatdırdı, Ekologiya və Təbii Sərvətlər Nazirliyini yol verdiyi səhlənkarlığa, nəzarətsizliyə, uzun müddət ərzində bu ərazidəki vəziyyətə passiv müşahidəçi mövqe tutmasına görə qınadı. Azərbaycan Prezidenti bu çıxışında bir daha müvafiq dövlət qurumlarına, Azərbaycanda çalışan şirkətlərə bəyan etdi ki, hər bir şirkət ölkə qanunlarına hörmətlə yanaşmalı, işini qanunvericilik normalarına uyğun qurmalıdır.

Dövlət rəhbərimiz eyni zamanda Gədəbəy rayonunda məlum hadisə zamanı vətəndaşların bir hissəsinin müəyyən təxribatçıların fitnəsinə uyaraq Azərbaycan polisinə qarşı qanunsuz hərəkətlər etməsinin qəbuledilməz olduğunu, ölkədə xaos, özbaşınalıq, təxribat xarakterli addımlar dövrünün hələ 1993-cü ildə başa çatdığını vurğuladı. Qeyd etdi ki, polisin dözümlülük göstərməsi, o demək deyil ki, kim istəsə asayiş, qanun mühafizəçilərinə daş ata bilər. Həqiqətən, Azərbaycan polisi cəmiyyətimizdə ictimai asayişin, sabitlik və inkişaf mühitinin təminatçısıdır. Bugünkü təhlükəsiz, sakit, rəvan, əmin-amanlıq içindəki həyatımızın gecə-gündüz ən çətin şəraitlərdə xidmət aparan polis əməkdaşlarımızın nə qədər gərgin zəhməti, fədakarlığı hesabına başa gəldiyinin bəzən fərqində olmuruq. Ara-sıra polisə qarşı təxribat törətmək istəyənlər də, onların fitnəsinə uyub müəyyən qanunsuz davranışlara cəhd edənlər də bilməlidirlər ki, Azərbaycan polisinə bu cür ləkələr yapışmaz. Onlara qara yaxmaq istəyənlər ən azı digər ölkələrdə, o cümlədən inkişaf etmiş Qərb dövlətlərində polisin vətəndaşlarla qəddar davranışına baxıb nəticə çıxarmalıdırlar ki, eyni hərəkəti oralarda etsəydilər, hansı aqibətlə üzləşərdilər. Ona görə də hər birimizdən yüksək vətəndaş məsuliyyəti tələb olunur.

Azərbaycanın gələcək uğurları dövlətimizin apardığı məqsədyönlü siyasət qədər həm də hər birimizin vətəndaş məsuliyyətimizdən asılıdır.



***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Cari ilin birinci yarısında Bakı şəhəri üzrə törədilən cinayətlərin 88,5 faizinin açılması təmin olunub

İyulun 15-də baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Bakı şəhərinin prokurorluq orqanları tərəfindən 2023-cü ilin birinci yarısı ərzində cinayətkarlığa qarşı mübarizə, istintaq işi, prokuror nəzarəti sahələrində görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsi keçirilib.






Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə müşavirə iştirakçıları Ümummilli Lider Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsini birdəqiqəlik sükutla anıblar.

Müşavirəni baş prokuror Kamran Əliyev açaraq 2023-cü ilin "Heydər Əliyev İli" elan edildiyini bildirib, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yolu, zəngin və çoxşaxəli irsi barədə məlumat verib. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, dövlətimizin başçısı Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban Əliyevanın yaxından iştirakı ilə müvəffəqiyyətlə həyata keçirilən siyasət nəticəsində bütün sahələrdə inkişaf və tərəqqinin qeydə alındığı vurğulanıb. Ölkədə kriminogen durumun nəzarətdə saxlanması, sabitliyinin təmin olunması, vətəndaşların hüquq və mənafelərinin qorunması sahəsində paytaxtın prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durduğu qeyd edilib.

Müşavirədə çıxış edən Bakı şəhər prokuroru Elşən Abbasov 2020-ci ilin mayından etibarən ölkə prokurorluğunda aparılan islahatlar nəticəsində prokurorluq orqanlarına olan etimadın artdığını bildirərək hesabat dövründə paytaxtın prokurorluq orqanlarının digər hüquq-mühafizə orqanları ilə birgə cinayətkarlığa qarşı mübarizə, vətəndaş məmnunluğunun təmin olunması, baş prokurorun rəhbər göstərişlərinin icrası istiqamətində görülən işlər barədə məlumat verib.

Qeyd olunub ki, 2023-cü ilin birinci yarısında Bakı şəhərinin prokurorluq və daxili işlər orqanları üzrə cəmi 8 min 552 cinayət hadisəsi qeydə alınıb və onların 88,5 faizinin açılması təmin olunub. Bakı şəhərinin daxili işlər orqanları ilə birlikdə qarşılıqlı işgüzar münasibətlər qurulmaqla həyata keçirilən tədbirlər nəticəsində törədilən 24 qəsdən adam öldürmə və 11 qəsdən adam öldürməyə cəhd cinayətlərinin, həmçinin ötən illərdən bağlı qalan 1 qəsdən adam öldürmə cinayətinin açılması təmin edilib.

Özünü öldürmə həddinə çatdırma, qəsdən sağlamlığa ağır zərər vurma, oğurluq, soyğunçuluq, quldurluq, qaçaqmalçılıq, xuliqanlıq, narkotik vasitələrlə bağlı cinayətlərin sayı azalıb, iqtisadi sahədə, o cümlədən korrupsiya, qulluq mənafeyi və mülkiyyət əleyhinə olan cinayətlərin sayında isə artım müşahidə olunub.

Qeyd edilib ki, ümumilikdə şəhərin prokurorluq orqanları tərəfindən hesabat dövründə 122 cinayət işinin ibtidai istintaqı tamamlanıb, onlardan 83 iş baxılması üçün müvafiq məhkəmələrə göndərilib. Bakı şəhəri üzrə prokurorluq orqanları tərəfindən ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə dövlətə, fiziki və hüquqi şəxslərə vurulmuş 3 milyon 139 min 311 manat məbləğində maddi ziyanın 1 milyon 659 min 584 manatının və ya 52,9 faizinin ödənilməsi təmin olunub.

Hesabat dövründə xidməti, icra və əmək intizamının pozulması hallarına qarşı tələbkarlıq artırılıb, şəhər prokurorluq orqanları əməkdaşlarından 6 nəfər intizam məsuliyyətinə cəlb olunub, onlardan 1 nəfərə töhmət, 3 nəfərə şiddətli töhmət verilib, 1 nəfərə irad tutulub, 1 nəfər tutduğu vəzifədən azad edilib.

Baş prokuror Kamran Əliyev müşavirəyə yekun vuraraq Bakı Şəhər Prokurorluğunun struktur qurumları və tabe rayon prokurorluqlarının hər birinin fəaliyyətini təhlil edərək daxili işlər və digər hüquq-mühafizə orqanları ilə işgüzar münasibətlərin davam etdirilməsi, ötən illərdən bağlı qalan qəsdən adam öldürmə cinayətlərinin açılması, maddi ziyanın ödənilməsi, ərizə və müraciətlərə baxılması zamanı vətəndaş məmnunluğunun təmin olunması, xidməti, icra və əmək intizamının möhkəmləndirilməsi sahəsində işlərin səmərəliliyinin daha da artırılması istiqamətində konkret tapşırıqlar verib.

# Mətbuat Şurası Fransa Prezidentinə açıq məktub ünvanlayıb

***Azərbaycan Mətbuat Şurası Fransa Prezidenti Emmanuel Makrona açıq məktub ünvanlayıb. Məktubda bildirilib:***

"Hörmətli cənab Prezident, Ermənistan parlamentinin spikeri Alen Simonyan bu il iyulun 11-13-də Fransaya işgüzar səfəri çərçivəsində ölkə Senatının sədri Jerar Larşe tərəfindən qəbul edilib. J.Larşe iyulun 13-də özünün tvitter hesabındakı paylaşımında bildirib ki, A.Simonyanla ayın 11-də keçirdiyi görüşdə Qarabağı Ermənistanla birləşdirən Laçın dəhlizinin dərhal açılmasını, guya Ermənistanın təhlükəsizliyinin təminatı məqsədilə Fransanın ona müdafiə xarakterli silahlar verməsini tezləşdirməyi tələb edib.

Fransa parlamentinin yuxarı palatası olan senatın rəhbərinin bu mövqeyi Azərbaycan cəmiyyətində ciddi etiraz formalaşdırdığı kimi, ölkəmizin media ictimaiyyətinin də narazılığına səbəb olub. Həmçinin Larşenin paylaşımının Fransanın ayrı-ayrı media orqanlarında yayılması və təqdir edilməsi də ciddi narazılıq doğuran məqamlardan biridir.

Hesab edirik ki, senat sədrinin belə fikir bildirməsi həssaslığı ilə seçilən Cənubi Qafqaz bölgəsində sülhün əldə edilməsinə yönələn səylərə qarşı çıxmaq cəhdidir. Təəssüf ki, bu cəhd müxtəlif media vasitələrinin köməyi ilə Fransanın ictimaiyyətinə ötürülüb, bununla faktiki müharibə ab-havasının formalaşdırılmasına start verilib.

Hazırda Azərbaycanla Ermənistan arasında danışıqlar davam edir. Azərbaycan mediası iki ölkənin ortaq məxrəcə gəlməsi, sülh müqaviləsinin imzalanması, bölgədə kommunikasiyaların tam açılması, sərhədlərin delimitasiyası kimi məsələlərin həllinə yönəlmiş səyləri yaxından izləyir. Avropa İttifaqının da diqqət mərkəzində olan bu prosesə bütövlükdə böyük ictimai maraq vardır. Mövcud şəraitdə, sülh gündəliyinin aktuallıq daşıdığı bir zamanda cənab Larşenin Ermənistanın silahlandırılması və yekun nəticədə isə regionun militarizasiyası məqsədini güdən bu mesajını yolverilməz hesab edirik.

Otuz ilə yaxın müddətdə münaqişənin ədalətli həllinə yönəlmiş hər hansı addımın atılmaması, əksinə, Ermənistanın davamlı silahlandırılması işğalçının yeni cinayətlərə hədəflənməsinə şərait yaratdı. Hesab edirik ki, beynəlxalq aləm, o cümlədən Fransa ictimaiyyəti və mediası ilk növbədə bunu nəzərə almalı, regionda gərginliyin daha da artmasına və arzuolunmaz ssenarilərin yaşanmasına qarşı müqavimət göstərməlidir. Cənab Larşenin fikirlərinin təbliği yaşadığımız coğrafiyada hələ də kövrək olan sülh gündəmini təhlükəyə atır, militarizmin vüsət alması üçün zəmin yaradır. Bu, Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələri kimi, ölkəmizin mühüm ictimai instututlarından sayılan, tərkibində aparıcı media orqanlarını və jurnalist təşkilatlarını birləşdirən Mətbuat Şurasını da məyus edir və təəssüfləndirir. Azərbaycan jurnalistləri hesab edirlər ki, indi yaranacaq hansısa xoşagəlməz hala, silahlı eskalasiyaya və digər gərginlik təmayüllərinə görə məsuliyyət birbaşa Fransa dövlətinin və onun rəhbərliyinin üzərinə düşəcək.

Cənab Prezident, ümid edirik ki, Fransa rəhbərliyi birtərəfli mövqeyini, Ermənistanı silahlandırmaqla regionda qeyri-sabitliyin daha da güclənməsinə yönəlmiş siyasətini yenidən nəzərdən keçirəcəkdir. Onu da diqqətinizə çatdırmaq istərdik ki, hazırkı dövrə kimi Fransa tərəfindən Ermənistana piyada döyüş maşınlarının, Fransanın lisenziyası ilə Hindistanda istehsal olunan artilleriya və raket sistemlərinin va digər hücum və öldürücü ağır silahların verilməsinə dair faktlar vardır. Bundan başqa, Fransanın Ermənistanda hərbi attaşe ofisini yaratdığı da bildirilir. Ümid edirik ki, qeyd edilmiş bu məsələlər ciddi araşdırılacaq, bizim sorğularımız cavablandırılacaq və Fransa dövləti bütün bunlara aydınlıq gətirəcəkdir.

Sizi vurğuladığımız məsələyə həssas yanaşmağa, Cənubi Qafqazda davamlı sülhün dəstəklənməsinə səy göstərməyə çağırırıq. İnanmaq istərdik ki, çağırışımıza adekvat münasibət ortaya qoyulacaq və Fransa bundan sonra Azərbaycanla Ermənistan arasında problemlərin həlli məsələsində ədalətli mövqe nümayiş etdirəcək, gərginliyin aradan qalxmasına töhfə verməklə, hər iki ölkənin xalqlarının dinc və əmin-amanlıq şəraitində yaşaması kimi bəşəri missiyanın gerçəkləşməsinə kömək göstərəcəkdir.

# Ermənistanın əsassız iddiaları bir daha ifşa olundu

## Beynəlxalq Ədalət Məhkəməsi bu dəfə də hüququn aliliyini müdafiə etdi

Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın 2023-cü il 22 fevral tarixli qərarında dəyişiklik edilməsi barədə tələbini rədd edib. Məhkəmə bu qərarı ilə Ermənistanın Azərbaycan sərhədçilərini Laçın sərhəd nəzarət-keçid məntəqəsindən çıxarmaq tələbini yekdilliklə rədd etdiyini təsdiqləyib. Bununla da Ermənistanın ölkəmizə qarşı qaldırdığı növbəti əsassız iddiası beynəlxalq səviyyədə iflasa uğrayıb. Mövzu ilə bağlı Milli Məclisin deputatlarının fikirlərini öyrəndik.





### Azərbaycanın atdığı addımlar beynəlxalq hüquq normaları çərçivəsindədir

Milli Məclisin deputatı Asim Mollazadə bildirib ki, Beynəlxalq Ədalət Məhkəməsi bu qərarı ilə hüququn aliliyini müdafiə edib: "Bu bir daha sübut edir ki, Azərbaycanın atdığı addımlar beynəlxalq hüquq normaları çərçivəsindədir. Ermənilərin iddiaları isə onların işğalçı mövqeyini müdafiə etməkdən başqa bir şey deyildi. Onların iddiaları tamamilə yalan və böhtandır".

Deputatın sözlərinə görə, Ermənistanın müraciəti elə bu səbəbdən də əsassız hesab edildi, yəni yalanları növbəti dəfə ifşa olundu. A.Mollazadənin fikrincə, erməni yalanlarının ifşası davam etdirilməli, beynəlxalq ictimaiyyət düzgün məlumatlandırılmalıdır. Ermənistan beynəlxalq hüquq normalarına əməl etməyə məcburdur.

"Hazırda bu ölkənin arxasında duran və ona dəstək verən qüvvələr bölgədə sabitliyi pozmağa çalışırlar. Beynəlxalq Ədalət Məhkəməsinin belə bir vaxtda ədalətli qərar verməsini xüsusilə alqışlayıram. Düşünürəm ki, bütün beynəlxalq təşkilatlar məhz hüququn aliliyinə riayət etməli, lazımi addımları beynəlxalq hüquq çərçivəsində atmalıdırlar. Unutmaq olmaz ki, Azərbaycan haqqı, ədaləti artıq bütün dünyaya nümayiş etdirir", - deyə deputat vurğulayıb.

### Beynəlxalq Ədalət Məhkəməsinə ünvanladığı əsassız müraciətlərdən ən çox əziyyət çəkən elə Ermənistanın özü olacaq

Milli Məclisin deputatı Ceyhun Məmmədov deyib ki, Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistanın əleyhinə belə bir qərar qəbul etməsi onlara ünvanlanmış növbəti mesajdır. Bu məhkəmə sözügedən qərarı ilə mövqeyini bir daha qəti olaraq ifadə etdi. Ermənistan rəhbərliyi başa düşməlidir ki, Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəsi yaradılması Azərbaycanın suveren hüququdur.

"Ermənistanın artıq başqa yolu yoxdur. Rəsmi İrəvan Azərbaycanın şərtlərini qəbul edərək sülh müqaviləsini imzalamalıdır. Beynəlxalq Ədalət Məhkəməsi, ayrı-ayrı dövlətlər, eləcə də beynəlxalq təşkilatlar bu barədə dəfələrlə öz mövqelərini bildiriblər. Lakin təəssüf ki, Ermənistan heç bir nəticə çıxarmır, müraciətlərini eyni qaydada davam etdirir. Bununla yanaşı, ölkəmizə qarşı təxribatlar törətməkdən əl çəkmir", - deyə deputat bildirib.

C.Məmmədovun sözlərinə görə, bu gün ABŞ və Avropa İttifaqı daxil olmaqla, demək olar ki, əksər dövlətlər Ermənistana açıq mesaj verirlər ki, Beynəlxalq Ədalət Məhkəməsinə ünvanladıqları bu cür müraciətlərin perspektivi yoxdur. Ona görə də bədnam qonşumuz artıq real addımlar atmalı, dəst-xətinə uyğun olmasa da, ədalətli davranış nümayiş etdirməlidir.

Deputat vurğulayıb ki, Qarabağ və Şərqi Zəngəzur beynəlxalq hüquqa əsasən Azərbaycanın suveren əraziləridir: "Həmin ərazilərdə yaşayanlar da Azərbaycan vətəndaşlarıdırlar. Belə olan halda, Ermənistan Azərbaycanın şərtlərini qəbul etməyə məcburdur. Anlamalıdır ki, vaxt keçdikcə bu davranışlarından, Beynəlxalq Ədalət Məhkəməsinə ünvanladığı əsassız müraciətlərdən ən çox əziyyət çəkən elə Ermənistanın özü olacaq".

***Nəzrin QARDAŞXANOVA, "Azərbaycan"***

# *Hindistanlı ekoloq:* "Arazdəyəndə metallurgiya zavodunun tikintisinə etiraz edənlərin sayının artması potensial ekoloji fəlakətdən narahatlığın təzahürüdür"



*"Arazdəyəndə metallurgiya zavodunun tikintisinə öz narahatlıqlarını bildirən və etiraz edən beynəlxalq QHT-lərin sayının artması ürəkaçandır. Vətəndaş cəmiyyəti təşkilatlarının yaydığı bəyanatda transsərhəd kontekstlərdə ətraf mühitə təsirin qiymətləndirilməsini vurğulayan Espoo Konvensiyası kimi beynəlxalq səviyyədə tanınmış standart və prinsiplərə riayət etməyin vacibliyi diqqətə çatdırılır. QHT-lərin bu kollektiv səsi irimiqyaslı metallurgiya zavodunun yaradılması nəticəsində yarana biləcək potensial ekoloji fəlakətdən narahatlığın ifadəsidir. Zavodun fəaliyyətinin insan sağlamlığı, ətraf mühit və davamlılıq üçün geniş mənfi təsirlərinin ola biləcəyinin dərk edilməsi bu problemin səmərəli həllində çox vacibdir. Bundan əlavə, yerli ekosistemə, o cümlədən Araz çayına və onun suyundan asılı olan canlı təbiətə və təsərrüfatlara potensial zərərin vurula biləcəyinin qeyd edilməsi təkcə yaxın ətraf mühitin deyil, həm də bu layihənin təsirinə məruz qalan insanların yaşayış şəraitinin qorunmasının vacibliyini əks etdirir".*

Bu sözləri AZƏRTAC-a açıqlamasında Qərbi Benqal Hökumətinin Səhiyyə və Ailə Rifahı Departamentinin nümayəndəsi hindistanlı Haşim Əbdül Halim söyləyib.

O qeyd edib ki, BMT-nin Ətraf Mühit Proqramı, Ümumdünya Səhiyyə Təşkilatı və digər müvafiq beynəlxalq təşkilatların müdaxilə çağırışları ətraf mühitlə bağlı bu pozuntuların aradan qaldırılması üçün əlaqələndirilmiş cavab tədbirlərinə ehtiyac olduğunu nümayiş etdirir. Bundan əlavə, ABŞ-ni metallurgiya zavodunun tikintisinə verdiyi dəstəyi yenidən nəzərdən keçirməyə çağırmaq məsuliyyətli qərarların qəbul edilməsinin və xalqlar arasında əməkdaşlığın vacibliyini vurğulayır.

"Bu kritik məsələ ilə bağlı maarifləndirmə işində vətəndaş cəmiyyəti təşkilatlarının həmrəyliyinin və səfərbərliyinin şahidi olmaq ürəkaçandır. Bəyanatı dəstəkləyən ölkələrin sayının artması ətraf mühitin və potensial zərərli sənaye layihələrindən təsirlənən icmaların rifahının qorunması üçün qlobal fəaliyyət çağırışını daha da gücləndirir. Biz birlikdə davamlı əməkdaşlıq edərək təbliğat yolu ilə həllər tapmaq, sənaye obyektlərinin tikintisinin və istismarının beynəlxalq standartlara uyğun olmasını təmin etmək, həmçinin ətraf mühiti qoruyaraq yerli icmaların rifahını prioritetləşdirmək istiqamətində işləyə bilərik", - deyə Haşim Əbdül Halim əlavə edib.

# *Keniyalı QHT sədri:* "Azərbaycan-Ermənistan sərhədində metallurgiya zavodunun inşası standartlara zidd olaraq reallaşdırılan layihədir"

"Arazdəyəndə metallurgiya zavodunun tikildiyi ərazi Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Ermənistan arasında sərhəd xəttidir. İllik istehsal gücünün 180 min ton olacaq bu zavodun inşası standartlara zidd şəkildə reallaşdırılan layihədir".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Keniya "Ot kökləri" Təşkilatları Konsorsiumunun prezidenti Eliyud Emeri deyib.

"Bizim narahatlığımız ondan ibarətdir ki, Ermənistan və Azərbaycan bu prosesə tam cəlb olunmayıb. Bu o deməkdir ki, ictimaiyyətə əvvəlcədən heç bir məlumat verilməyib və razılıq olmayıb. Transmilli şirkətin reallaşdıracağı bu layihə nəticəsində su canlılarına və havanın çirklənməsinə təsir göstərəcək karbon emissiyaları biomüxtəlifliyə birbaşa təsir edəcək. Biz BMT-nin müvafiq qurumlarına bu layihənin dayandırılması və bütün məqbul standartlara tam uyğun olması üçün petisiyamızı təqdim edəcəyik. Petisiyanın əsas məqsədi beynəlxalq biznes standartlarına uyğun gəlməyən bu cür addımların qarşısının alınmasıdır", - deyə E.Emeri diqqətə çatdırıb.

Onun sözlərinə görə, həmin ərazidə reallaşdırılması nəzərdə tutulan hər bir layihənin parametrləri müəyyən olunmalı, onun ətraf mühitə uyğunluğu təmin edilməlidir. "Buna görə də Azərbaycan və Ermənistanın sərhədyanı ərazilərindəki fauna və floraya mənfi təsir göstərəcək zavodun tikilməsinə qarşı birgə qlobal kampaniya başlatdıq. Biz vətəndaş cəmiyyətimizi və medianı bütün dünyada iqlim dəyişikliyinə səbəb olan karbon emissiyasının artmasına son qoymaq üçün bu kampaniyaya qoşulmağa çağırırıq. Biz bu vəziyyəti pisləyirik və ümid edirik ki, buna son qoyulacaq", - deyə o qeyd edib.

# *Əlcəzair portalı:* "Prezident İlham Əliyev Azərbaycanın sülh gündəliyinə sadiq olduğunu bildirib"



Əlcəzairin "Əl Hərir" portalında "Prezident İlham Əliyev Azərbaycanın sülh gündəliyinə sadiq olduğunu bildirib" sərlövhəli material dərc edilib.

AZƏRTAC-ın xəbərinə istinadla dərc olunan yazıda qeyd edilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Dövlət katibi Antoni Blinkenlə telefon danışığı zamanı Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması məqsədi daşıyan sülh gündəliyinə sadiqliyini və iki ölkə arasında sülh müqaviləsinin təşəbbüskarı olaraq onun imzalanmasını dəstəklədiyini vurğulayıb.

Ərəbdilli oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycanın dövlət başçısı Antoni Blinkenin və ABŞ hökumətinin iki ölkə arasında sülh gündəliyinin irəli aparılmasına göstərdiyi davamlı dəstəyinin yüksək qiymətləndirildiyini qeyd edib və yaxın günlərdə Ermənistan tərəfi ilə yüksək səviyyədə növbəti görüşün keçiriləcəyini bildirib.

# Qanunsuz erməni silahlı dəstələrinin fortifikasiya qurğuları quraşdırmaq cəhdinin qarşısı alınıb

İyulun 15-i saat 10:00 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocalı rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Qeyd edilib ki, bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

# *Kanada mətbuatı:* "Fransa Azərbaycanın tərəfində olan beynəlxalq hüquqa qarşı çıxır və bölgədə sabitliyi pozur"

Fransa Azərbaycanın tərəfində olan beynəlxalq hüquqa qarşı çıxır və bölgədə sabitliyi pozur.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bu barədə Kanadanın nüfuzlu "Thej.ca" media platformasında dərc edilmiş "Fransanın Ermənistan-Azərbaycan münaqişəsində rolu geosiyasi maraqlarla bağlı suallar doğurur" sərlövhəli məqalədə qeyd olunub.

Dona Qrasiya Diplomatiya Mərkəzinin təsisçisi və baş direktoru, tanınmış siyasi şərhçi və jurnalist Reyçel Avrahamın qələmə aldığı məqalədə diqqətə çatdırılıb ki, Fransanın Ermənistanı hərbi cəhətdən dəstəklədiyi barədə məlumatlar mövcuddur.

Müxtəlif siyasi ekspertlərin fikirlərinin yer aldığı məqalədə Fransanın uzun illərdir ki, irqçi davranışlarına görə qınaq obyekti olduğu qeyd edilib. Təəssüflə bildirilib ki, Afrikanın bir çox ölkəsi Fransanın onların tarixindəki müstəmləkə keçmişinə görə üzr istəməsini gözlədiyi halda, adıçəkilən ölkənin Afrikaya bərabərhüquqlu tərəfdaş kimi yanaşması müşahidə olunmur.

Yazıda qeyd edilib ki, qərəzli davranışları səbəbindən Fransa Ermənistanla Azərbaycan arasında danışıqlar prosesində iştirak edən obyektiv ölkə kimi mövqeyini itirib və Azərbaycan açıq şəkildə ermənipərəst mövqe tutduğuna görə Fransanın sülh prosesində iştirakı ilə razılaşmır. Fransanın Ermənistanı dəstəkləməsi, birincisi, bu ölkədəki nüfuzlu erməni diasporu sayəsindədir, ikincisi, Fransa Cənubi Qafqazda öz təsirinə malik olmaq istəyir. Bir neçə ay əvvəl Ermənistana humanitar missiyanın göndərilməsi ilə bağlı qərarın qəbul edilməsi də sözügedən səbəbdən qaynaqlanır.

Eyni zamanda diqqətə çatdırılıb ki, Fransa İrəvanı sülh müqaviləsi bağlamağa sövq etmək əvəzinə, sırf öz maraqlarından çıxış edərək Ermənistanı dəstəkləyir ki, bu da nə Ermənistana, nə də Fransaya sərf edir. Fransanın sözügedən siyasəti Ermənistandakı millətçi qruplara yalnız ümid verməklə tərəfləri sülh sazişinə yaxınlaşdırmır. Bir sözlə, Fransa Azərbaycanın tərəfində olan beynəlxalq hüquqazidd siyasəti ilə bölgədə sabitliyi pozur.

# Qanunsuz erməni silahlıları ölkəmizin hava məkanında sərnişin təyyarələrinə qarşı radiomaneələr tətbiq edirlər

Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycandakı ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən ölkəmizin hava məkanından istifadə etməklə uçuşlar yerinə yetirən yerli və xarici aviaşirkətlərin sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı radiomaneələr tətbiq olunur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Qeyd edilib ki, iyulun 13-də saat 11:54-dən 12:07-dək Zəngilan-Füzuli və saat 13:02-dən 13:17-dək Füzuli-Bakı marşrutları üzrə uçuş yerinə yetirən Azərbaycan Hava Yollarına məxsus Gulfstream G280 sərnişin təyyarəsinə qarşı radiomaneələrin tətbiqi nəticəsində onun GPS peyk naviqasiya sistemində fasilə yaranıb.

"Bildiririk ki, qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən sərnişin təyyarələrinin GPS peyk naviqasiya sistemlərinə qarşı əvvəllər də radiomaneələrin tətbiq edilməsi faktı qeydə alınıb. Bu kimi halların hava uçuşlarının təhlükəsizliyinə ciddi təhdid təşkil etdiyi barədə Rusiya sülhməramlı kontingentinin komandanlığına tərəfimizdən dəfələrlə edilən müraciətlərə baxmayaraq, heç bir tədbir görülməyib", - məlumatda vurğulanıb.

# "Femida dialoq platforması" üzərində sahibkarlarla görüş keçirildi

## İyulun 14-də məhkəmə hüquq islahatları və bu sahədə çağırışlar "Femida dialoq platforması"nda müzakirə edilib




Azərbaycan Respublikası Ali Məhkəməsi və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının təşkilatçılığı, Kiçik və Orta Biznesin İnkişafı Agentliynin (KOBİA) tərəfdaşlığı çərçivəsində sahibkarlarla görüşdə kommersiya mübahisələrinin məhkəmə yolu ilə həlli, mediasiya və arbitraj kimi alternativ həll mexanizmləri, sahibkarların məhkəmələrdən gözləntiləri və digər məsələlərə toxunulub.

Tədbirdə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimov, İnsan Hüquqları üzrə müvəkkil (Ombudsman) Səbinə Əliyeva, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, Vəkillər Kollegiyasının sədri Anar Bağırov, Məhkəmə Hüquq Şurasının nümayəndələri, hakimlər və müxtəlif sektorları təmsil edən sahibkarlar iştirak ediblər.

Tədbiri açan Azərbaycan Sahibkarlar Konfederasiyasının baş katibi Natavan Məmmədova bildirib ki, 2019-cu ildə cənab İlham Əliyevin imzaladığı "Məhkəmə hüquq islahatlarının dərinləşdirilməsi" ilə bağlı fərman məhkəmə sistemində aparılan islahatların keyfiyyətcə yeni bir mərhələyə keçməsinin əsasını qoyub. Bu fərmanda Azərbaycan Sahibkarlar Konfederasiyası qarşısına qoyulan məsələlər - arbitraj və kommersiya işlərinə baxılması keyfiyyətinin artırılması ilə bağlı təkliflərini hazırlayaraq müvafiq şəkildə hökumətə təqdim edib.

"Hesab edirik ki, fərmandan irəli gələn islahatlar nəticəsində inzibati və iqtisad məhkəmələrinin ayrılması, mübahisələrin alternativ həlli üçün Mediasiya institutunun yaradılması "Mülki-prosessual məcəllə"yə müvafiq dəyişikliklərin edilməsi sahibkarların məhkəmə mübahisələrinin həllində böyük irəliləyişlərə səbəb oldu", - deyə baş katib vurğulayıb. O, "Femida Dialoq Platforması" çərçivəsində üçüncü görüşün məhz sahibkarlarla keçirilməsini dövlətimizin sahibkarlığın inkişafına verdiyi böyük önəmin təcəssümü olduğunu qeyd edib.

Azərbaycan Respublikasının Ali Məhkəməsinin sədri İnam Kərimov çıxışında bildirib ki, dünya təcrübəsinin müstəqil və qərəzsiz məhkəmə sisteminin ölkədə kiçik və orta sahibkarlığın sürətli inkişafında və böyük bizneslərin formalaşmasında önəmli rolu vardır. "Müstəqil və səmərəli məhkəmə sistemi ölkəyə həm daxildən, həm də xaricdən investisiyalar cəlb edilməsinə zəmin yaradır və ölkədə sahibkarlığı stimullaşdırır. Məhz bu səbəbdən də Azərbaycanda məhkəmə islahatları daim dövlətin diqqət mərkəzində olub. Ali Məhkəmə bu islahatların mərkəzində yer alır", - deyə İnam Kərimov vurğulayıb.

Ali Məhkəmənin sədri bildirib ki, bu gün dünya sürətlə inkişaf edir, texnologiyaların bütün sahələrdə tətbiqi genişlənir, yeni hüquq münasibətləri meydana çıxır. Biznes mühitində rəqabətə davamlılıq getdikcə daha da çətinləşir. Mövcud problemlərin əvvəlkindən daha çevik həlli tələb olunur. Həm dövlətlər, həm də sahibkarlar yeni çağırışlarla üzləşirlər. Bu çağırışlara cavab vermək üçün ən uğurlu yol birgə əməkdaşlıq, birgə dialoqdur.

İnsan Hüquqları üzrə müvəkkil (Ombudsman) Səbinə Əliyeva çıxışı zamanı azad sahibkarlıq hüququnun təmini və sahibkarların pozulmuş hüquqlarının bərpası məsələləri, sahibkarlıq fəaliyyəti zamanı insan hüquq və azadlıqlarının müdafiəsi problemlərinin Ombudsmanın fəaliyyətinin prioritet istiqamətlərini təşkil etdiyinə diqqət çəkib. "Ötən dövr ərzində normativ hüquqi akt layihələrinə dair təqdim etdiyimiz bir çox rəy və təkliflər nəzərə alınmışdır ki, bu da müvafiq sahələr üzrə boşluqların aradan qaldırılmasına, funksional və normativ problemlərin həllinə imkan verib. Sadalanan istiqamətlər üzrə fəaliyyətimizi dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, beynəlxalq təşkilatlar, habelə özəl şirkətlərlə əməkdaşlıq çərçivəsində həyata keçiririk. Azərbaycan Sahibkarlar Konfederasiyası və KOBİA ilə əməkdaşlıq bu baxımdan xüsusi önəm kəsb edir", - deyə Ombudsman bildirib.

Tədbirdə çıxış edən KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov Kiçik və Orta Biznes subyektlərinin qanuni maraqlarının müdafiəsinin agentliyin fəaliyyət istiqamətlərindən olduğunu, bu baxımdan məhkəmə icraatının effektivliyinin xüsusi əhəmiyyət kəsb etdiyini deyib. Bildirilib ki, agentliyə daxil olan müraciətlər arasında məhkəmə icraatında olan müraciətlər də var və son zamanlar belə müraciətlərin sayında azalmanın müşahidə edilməsi müsbət tendensiya kimi qiymətləndirilə bilər. Hazırda ölkəmizdə tətbiq olunan alternativ hüquqi həll mexanizmlərindən olan mediasiya institutunun fəaliyyəti müsbətdir. Agentlik sahibkarların mübahisəli məsələlərinin məhkəməyə getmədən həllinə töhfə verən bu mexanizmin daha geniş tətbiqinə dəstək üçün "Bakı KOB evi"ndə mediasiya üçün ayrıca görüş otaqları ayırıb. Gələcəkdə təşkil ediləcək digər KOB evlərində də mediasiya otaqlarının yaradılması planlaşdırılır. Ölkəmizdə arbitraj institutunun tətbiqi xarici investorların Azərbaycana daha çox cəlb edilməsi üçün müsbət amil ola bilər.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev "Femida Dialoq Platforması" çərçivəsində növbəti dialoqun sahibkarlarla keçirilməsinin məhkəmə-hüquq sisteminin sahibkarlara və özəl biznesə olan müsbət münasibətinin göstəricisi, eləcə də dövlət-özəl dialoqunun ayrılmaz hissəsi olduğunu vurğulayaraq, sahibkarlarla bu görüşün təşkilinə görə Ali Məhkəmə sədri İnam Kərimova öz təşəkkürünü bildirdi.

Konfederasiya Prezidenti qeyd etdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ardıcıl islahatlar həyata keçirilir. Bu gün ölkəmiz iqtisadi inkişaf, azad olunmuş torpaqlarımızda aparılan quruculuq işləri və müasir texnologiyaların tətbiq edilməsi ilə dünyanın diqqət mərkəzindədir.

Ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan addımların tərkib hissəsi kimi məhkəmə hüquq sistemində aparılan islahatlar sahibkarlığın inkişafı baxımından da kifayət qədər önəmlidir.

Mübahisələrin alternativ həlli üçün Mediasiya institutu yaradıldı, məhkəmələrin elektronlaşdırılması həyata keçirildi və məhkəmə hüquq sistemində işlərə baxılması qaydaları sadələşdirilməklə bərabər, operativləşməsi də təmin edildi.

M.Musayev dialoqun nəticəsi olaraq sahibkarların məhkəmə sistemində qarşılaşdıqları çətinliklərin həlli ilə bağlı çevik qərarlar qəbul ediləcəyinə və bu əməkdaşlığın daimi olacağına ümidvar olduğunu bildirdi.

Azərbaycan Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov çıxışında açıq dialoq formatında keçirilən bu görüşlərin faydalı və səmərəli olduğunu qeyd edərək, vurğuladı ki, "Bu gün qaldırılan məsələlərin Ali Məhkəmənin geniş tərkibli heyəti tərəfindən dinlənilməsi çox əhəmiyyətlidir. Biz məhkəmə sistemində yaranan məsələlərə daha sistemli yanaşmalıyıq və əsaslandırılmış formada, işgüzar qaydada öz təkliflərimizi Ali Məhkəməyə təqdim etməliyik".

Sonra biznes ictimaiyyətin əsas gözləntiləri ilə bağlı Azərbaycan Sahibkarlar Konfederasiyanın baş katibinin müavini Xəqan Hümmətzadə və Məhkəmə hüquq islahatları, bu sahədəki yeni çağırışlar mövzusunda Azərbaycan Respublikası Ali Məhkəməsinin Kommersiya Kollegiyasının sədri Kəmalə Abıyeva təqdimatla çıxış etdilər.

Tədbir qarşılıqlı dialoq və müzakirələrlə işini yekunlaşdırdı.

*"Azərbaycan"*

# Laçında qayıdış büsatı

## İndiyə qədər bu füsunkar şəhərdə 93 ailə - 351 nəfər xoşbəxt və əbədi həyata başlayıb



Milli çağırışımız olan Qarabağa və Şərqi Zəngəzura Böyük qayıdışı yüksək səviyyədə həyata keçirmək üçün Azərbaycan dövləti işğaldan azad edilən ərazilərdə geniş tikinti-quruculuq işləri həyata keçirir. Nəhəng infrastruktur layihələr gerçəkləşdirilir, tunellər, körpülər, beynəlxalq hava limanları inşa edilir, eyni zamanda yaşayış məntəqələri bərpa edilir.





Aparılan bütün quruculuq-bərpa işləri Prezident İlham Əliyevin nəzarəti altında həyata keçirilir. Dövlət başçısı mütəmadi olaraq həmin ərazilərə gerçəkləşdirdiyi səfərlərində görülmüş işlərlə yerində tanış olur, tövsiyələrini verir, təzə bünövrələr qoyur.

Qurucu lider İlham Əliyev bu günə qədər Qarabağ və Şərqi Zəngəzurda 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlini qoyub.

Bu ərazilərdə görülən sürətli və kompleks işlərin nəticəsidir ki, artıq ötən ildən etibarən Böyük qayıdışa start verilib və yüzlərlə ailə yenidən bərpa olunmuş yurdlarında xoşbəxt həyata başlayıblar.

### Yüzlərlə ailənin yurd sevinci





"Ağıllı kənd" konsepsiyası ilə yenidən qurulmuş Ağalı kəndində ötən ilin yayından etibarən üç mərhələdə 86 ailə - 420 nəfər məskunlaşıb. Ağalıya köçün dörd mərhələdə həyata keçirilməsi planlaşdırılıb.

Tərtərin Talış kəndinə bu il martın 16-da ilkin mərhələdə 20 məcburi köçkün ailəsi - 90 nəfər qayıdıb.

Qayıdışın növbəti ünvanı isə Şərqi Zəngəzurun cənnətməkanı Laçın şəhəri olub. Laçına ilk 20 ailə bu il mayın 27-də yerləşdirilib.

Mayın 28-də Laçına dönən sakinlərlə görüşdə "Cənnətin əgər təsviri varsa, bu gün bax budur", - deyən Prezident İlham Əliyev qürurla söyləmişdi ki, gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun.

İyunun 14-də Laçın şəhərinə daha 22 ailə (72 nəfər), ayın 19-da 13 ailə (44 nəfər), 25-də isə 15 ailə (53 nəfər) köçürülüb.

Laçına yol alan 23 ailə olmaqla 85 nəfərdən ibarət növbəti xoşbəxt köç karvanı isə iyulun 13-də dağlar qoynundakı füsunkar şəhərə çatıb. Sevinc gözyaşları, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, rəşadətli Azərbaycan Ordusunun hər bir üzvünə, torpaqlarımızın azadlığı uğrunda canlarından keçən uca şəhidlərimizə minnətdarlıq duyğuları ilə illərdən sonra Laçına qədəm qoyan sakinlərə evlərinin yeni açarları təqdim olunub. Köçürülən ailələr, Laçın şəhərində vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar.

Bununla da, Laçın şəhərində 93 ailə, yəni 351 nəfərin daimi məskunlaşması təmin edilib.

Lakin bu, Laçın şəhərinə sonuncu qayıdış köçü deyil. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin bərpa edilən və yenidən qurulan Laçın şəhərinə qayıdışı davam edir.

Ümumilikdə Laçın şəhərinə 700, rayonun Zabux və Sus kəndlərinə isə 400 ailənin köçürülməsi nəzərdə tutulub...

### Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq

İyulun 11-də 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə dövlət başçısı qeyd etdi ki, cəmi səkkiz ay ərzində Laçın şəhərinin böyük hissəsi tamamilə bərpa edilib və burada yeddi yüzdən çox ailə üçün həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Həmçinin Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq.

Dövlət başçısı onu da bildirdi ki, ilin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Bütövlükdə Böyük qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur...

İşğaldan azad edilmiş ərazilərə Böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunub.

Prezidentin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın icrasını təmin etmək məqsədilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi bu istiqamətdə görüləcək işlər üçün mühüm yol xəritəsidir. Tədbirlər planına əsasən, tərtib edilmiş planlar üzrə bərpa qrafikinə uyğun olaraq mərhələli formada inşa edilmiş evlərə ailələrin köçürülməsi planlaşdırılır.

Həmçinin 2025-ci ilədək 10270, 2026-cı ilədək isə 34500 ailənin köçürülməsi nəzərdə tutulur.

Planlaşdırılan işlərin zamanında və layiqincə həyata keçirilməsi üçün bu ərazilərin bərpasına dövlət büdcəsindən lazımi vəsait ayrılır. Onu da vurğulayaq ki, Qarabağ və Şərqi Zəngəzurda aparılan bütün işləri, iki məktəbin tikintisi istisna olmaqla, dövlətimiz öz hesabına görür.

İşğaldan azad edilən ərazilərimizin bərpasını büdcəmiz qarşısındakı əsas çağırışlardan ilki kimi xarakterizə edən dövlət başçısı 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə də vurğuladı ki, bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsi təmin ediləcək.

### Qətiyyətli vədin gerçəkləşən məqamı

Göründüyü kimi, qayıdış proqramı ardıcıllıqla və uğurla həyata keçirilir. Gün keçdikcə Qarabağ və Şərqi Zəngəzurda yeni-yeni yurdların işığı yandırılır, yüzlərlə məcburi köçkün ailəsi doğma-od ocağına qaytarılır. İyulun 13-də isə daha 23 laçınlı ailə bu bəxtəvərliyi yaşadı, doğma torpağında əbədi xoşbəxt həyata başladı.

Bütün bunlar isə düz 11 il əvvəl - 24 dekabr 2011-ci ildə dövlət başçısı İlham Əliyevin 50 illik yubileyini Ağcabədidə, Taxtakörpü ərazisində məskunlaşmış Laçın rayonundan olan məcburi köçkün ailələri ilə birgə qeyd etdiyi gün söylədiyi fikirlərin qürurla və təntənə ilə həyata keçirilməsinin əyani təcəssümüdür: "Bu müvəqqəti yaşayış məntəqəsidir. Torpaqlarımız işğalçılardan azad olunandan sonra bütün köçkünlər üçün Laçında, Kəlbəcərdə, Ağdamda, hələ işğal altında olan digər torpaqlarda bundan da gözəl evlər tikəcəyik. Mən buna şübhə etmirəm".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***





# Üçüncü "Yüksəliş" müsabiqəsinin final mərhələsinin açılış mərasimi keçirilib















İyulun 15-də Bakı Ekspo Mərkəzində üçüncü "Yüksəliş" müsabiqəsinin final mərhələsinin rəsmi açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə gənclər və idman nazirinin müavini, İşçi qrupunun rəhbəri Fərhad Hacıyev çıxış edib. O, "Yüksəliş" müsabiqəsi finalçılarına səslənərək istedadlı kadrların seçilməsi, inkişaf etdirilməsi üzrə layihənin keçirilməsində yaxından iştirak etdikləri üçün qürur hissi duyduğunu bildirib. Fərhad Hacıyev onu da əlavə edib ki, finalçılar arasında ötən illər müsabiqədə iştirak etmiş namizədlərin çoxluq təşkil etməsi sevindirici haldır. Bunun müsabiqənin ictimaiyyət tərəfindən yüksək qiymətləndirilməsinin və iştirakçıların etimadını qazanmasının göstəricisi olduğunu bildirən İşçi qrupunun rəhbəri sonda hər bir finalçıya uğurlar arzulayıb, onların final mərhələsinədək gəlib çatmasının qalibiyyətə bərabər olduğunu qeyd edib.

Tədbir Təşkilat Komitəsi üzvlərinin çıxışları ilə davam edib. Çıxışlarda "Yüksəliş" müsabiqəsinin hər il yeni nəsil idarəçilərin aşkara çıxarılması və formalaşmasında oynadığı əhəmiyyətli rol vurğulanıb, günümüzdə idarəçiliyin tələblərinə uyğun olaraq rəqabətli insan kapitalının önəmi diqqətə çatdırılıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov insan kapitalının, kadr potensialının artırılması, bacarıqlı kadrların önə çıxarılması məqsədilə həyata keçirilən "Yüksəliş" müsabiqəsinin önəmini vurğulayıb, müsabiqənin intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan gələcəyin liderlərinin dəstəklənməsi və ölkədə rəqabətqabiliyyətli insan kapitalının inkişafını təmin etmək məqsədilə atılmış mühüm addım olduğunu qeyd edib. İqtisadiyyat naziri müsabiqənin finalçılarına idarəçilik sənətinin incəliklərinə dərindən yiyələnmələrini tövsiyə edib, onlara bu sahədə uğurlar arzulayıb.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib ki, Azərbaycan hazırda iqtisadi, sosial, mədəni və idman sahələri başda olmaqla əksər sahələrdə ən dinamik dövrünü yaşayır. Belə bir dövrdə gənclərin ölkəmizin inkişafına dəstək olması üçün "Yüksəliş" müsabiqəsi əvəzsiz bir imkan yaradır.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə gənclərin inkişafına, təhsil sahəsinə, mütəxəssis hazırlığına hər zaman dövlətçiliyin və cəmiyyət həyatının ən vacib, strateji əhəmiyyətli sahəsi kimi yanaşılmasında Heydər Əliyev məktəbinin təkanverici rolunu vurğulayıb. O bildirib ki, Ulu Öndər Heydər Əliyev gənclərin yaxşı təhsil almaqla yanaşı, vətənpərvər ruhda yetişməsi üçün lazımi tədbirlər görürdü. Bu növ təşəbbüslərin ölkəmizdə davam etməsi üçün "Yüksəliş" müsabiqəsinin təşkil olunması əhəmiyyətli və zəruri addımdır. Müsabiqənin əvvəlki dörd mərhələsini uğurla başa vuran 109 nəfər iştirakçının mübarizə apardığı final mərhələsi iyulun 16-da yekunlaşacaq.

Xatırladaq ki, fevralın 17-dən qeydiyyatına start verilən üçüncü "Yüksəliş" müsabiqəsinə 13 min 474 iştirakçı müraciət edib. Müsabiqənin 20 qalibini bir il ərzində idarəçi rəhbərlərdən - böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxil edilmə və 20 min manat dəyərində pul mükafatı gözləyir.

"Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən təsis olunub. Müsabiqə 5 mərhələdən - qeydiyyat, onlayn seçim, əyani, yarımfinal və finaldan ibarətdir.

Dövlət başçısı 2022-ci il dekabrın 20-də üçüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb.

# Şuşada "Vətənim Qarabağ" adlı poeziya saatı təşkil edilib



Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə Şuşada Vaqif Poeziya Günləri davam edir.

AZƏRTAC xəbər verir ki, poeziya günləri çərçivəsində bu gün "Vətənim Qarabağ" adlı poeziya saatı təşkil olunub.

Tədbirin açılışında Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi çıxış edərək, hər il Şuşada ənənə halını almış poeziya günlərinin təşkilinin mədəniyyətimiz və ədəbiyyatımız üçün önəm kəsb etdiyini diqqətə çatdırıb. O, bu mötəbər tədbirə qatıldıqları üçün hər kəsə təşəkkür edib.

Çıxış edən şair-tərcüməçi Səlim Babullaoğlu deyib ki, hər dəfə gözəl, mübarək Şuşa torpağında olmaq hər kəsə böyük məmnuniyyətlik gətirir: "Biz bu məmnuniyyətə doğru həm Ali Baş Komandan, həm ordumuzla uzun yol gəlmişik və bu prosesdə bizə qardaşlarımız, dostlarımız dəstək oldu. 44 günlük savaş günlərində bizim yaxın-uzaq ölkələrdə yaşayan həmkarlarımız, dostlarımız Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasında xeyli böyük işlər görüb. Bunlardan biri əlbəttə ki, həmişə Azərbaycanın yanında olan Türkiyə Cümhuriyyəti və qardaş ölkənin dəyərli ziyalılarıdır. Ömer Küçük Mehmetoğlu da belə aydınlarımızdandır. O, istedadlı yazıçıdır, çağdaş Türkiyə nəsrinin tanınmış nümayəndələrindəndir və peşəkar tərcüməçidir. Ömərin tərcüməsində bizim görkəmli ədiblərin əsərləri Türkiyə türkcəsində nəşr olunub. Türkiyənin məşhur "Heca" dərgisinin 7-8 il bundan əvvəl Azərbaycan ədəbiyyatına həsr olunmuş xüsusi nömrəsi işıq üzü görmüşdür. Lap bu günlərdə jurnalın Azərbaycan poeziyasına həsr olunmuş xüsusi nömrəsi hazırlanaraq çap edilib. Bütün bu xidmətlərinə görə o, Azərbaycan Yazıçılar Birliyinin "Bəxtiyar Vahabzadə" mükafatına layiq görülüb". Sonra mükafat türkiyəli yazıçıya təqdim olunub.

Ömer Mehmetoğlu göstərilən etimada görə Azərbaycan Yazıçılar Birliyinə təşəkkür edib.

Xalq şairi Vahid Əziz çıxış edərək deyib: "Biz 30 il sınağa çəkildik, bu illər bir an da olsun müqəddəs yurd yerlərimizi, Qarabağımızı unutmadıq, daim bu günü düşündük və arzuladıq. Şükürlər olsun ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ordumuz bu həsrətə, nisgilə son qoydu. Bu gün Azərbaycanın müqəddəs şəhərində belə bir möhtəşəm tədbirin keçirilməsi bir daha dövlətimizin gücünü, qüvvəsini, ordumuzun yenilməzliyini göstərir. Bu müqəddəs məkanda belə bir söz bayramına toplaşmağımıza görə Vaqif Poeziya Günlərinin iştirakçıları adından ölkəmizin başçısına minnətdarlığımı bildirirəm".

Sonra yazıçı Seyran Səxavət, şairlər Barat Vüsal, Qəşəm Nəcəfzadə, Əlisəmid Kür, Əkbər Qoşalı, tərcüməçi İan Perart, türkiyəli şair Serhad Kabaklı, Özbəkistanın Xalq şairi Xurşud Davron və digərləri çıxış edərək, Vaqif Poeziya Günlərinin əhəmiyyətindən danışıb, fikirlərini bölüşüb, vətənpərvərlik ruhunda və Şuşa haqqında şeirlərini səsləndiriblər.

# "Vətənim Qarabağ" adlı poeziya saatında tanınmış və gənc şairlər şeirlərini oxuyublar

Şuşada Vaqif Poeziya Günləri çərçivəsində "Vətənim Qarabağ" adlı poeziya saatının ikinci hissəsi təşkil olunub. AZƏRTAC xəbər verir ki, Natəvanın evinin önündə reallaşan tədbirdə bölgələrdən olan şairlər və Azərbaycan Yazıçılar Birliyinin üzvü olan gənc şairlər şeirlərini oxuyublar.

Əvvəlcə tədbirin aparıcısı, şair İbrahim İlyaslı Şuşada keçirilən Vaqif Poeziya Günləri haqqında təəssüratlarını bölüşüb. O, poeziya günlərini söz, sənət və mənəviyyat bayramı adlandırıb. Qeyd edib ki, hər zaman olduğu kimi, bu dəfə də poeziya günləri Şuşada yüksək səviyyədə keçirilir. Diqqətə çatdırılıb ki, builki poeziya günlərinin təşkili işğaldan əvvəlki illərdə olduğu kimi, Vaqifin doğulduğu Qazax şəhərindən başladı və əziz Şuşada davam edir.

Sonra söz şairlərə verilib.

Poeziya saatında şairlər Bəsti Əlibəyli, Ramiz Babayev, Qanun Ümman, Ziyafət Yəhya, Reyhan Kənan, Şahnaz Şahin, Fəxrəddin Teyyub, Namiq Məna, Aysel Fikrətqızı, Bilal Arallı, Xuraman Muradova və digərləri vətənpərvərlik mövzusunda qələmə aldıqları, həmçinin Şuşaya həsr etdikləri şeirlərini səsləndiriblər.

Qeyd edək ki, bu il 100 illiyi qeyd edilən Ümummilli Lider Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı olub. Məhz bu səfər çərçivəsində Ümummilli Lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib. Müasir Azərbaycan ədəbiyyatı tarixində bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb, Şuşada yekunlaşardı.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun zəfəri nəticəsində Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra 41 illik tarixi olan Vaqif Poeziya Günləri yenidən öz yurdunda - mədəniyyət paytaxtımızda keçirilməkdədir.

# Şuşada "Dövri-səda" adlı konsert proqramı təqdim olunub

Vaqif Poeziya Günləri çərçivəsində Şuşanın sevilən məkanlarından birində - Natəvanın evi qarşısında "Dövri-səda" adlı konsert proqramı təqdim olunub.

AZƏRTAC xəbər verir ki, konsert çərçivəsində Əməkdar artist Vüqar Camalzadənin ədvar sistemi üzrə bəstələdiyi 8 musiqinin Qədim Musiqi Alətləri Ansamblının ifasında təqdimatı olub.

Ədvar Şərq musiqisində "sistemçilik" adı ilə məşhur məktəbin banisi olan Səfiəddin Urməvinin yaradıcılığının Şərq musiqi nəzəriyyəsi sahəsində ən böyük nailiyyətidir. Ədvar sistemi ilə Azərbaycan, eləcə də bütün Şərq musiqisinin əsasını təşkil edən səs kompleksləri sistemi qaydaya salınır.

Konsertdə Xalq artistləri Nəzakət Teymurova, Teyyub Aslanov, Əməkdar artist Fərqanə Qasımova, xanəndələr Rövşən Məmmədov, Hüseyn Məlikov, Aysel İbrahimova və digərləri Molla Pənah Vaqifin qəzəlləri ilə yanaşı, Xəqani Şirvani, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Mir Həmzə Nigari, Mir Möhsüm Nəvvab, Nizami Gəncəvi, Şah İsmayıl Xətainin ölməz əsərlərindən parçalar ifa edib, hər ifadan əvvəl isə qiraətçilər qəzəllərdən parçalar təqdim ediblər.

İncəsənət ustalarının bir-birindən maraqlı ifaları izləyicilərin zövqünü oxşayıb. Konsert proqramı maraqla qarşılanıb.

# Son 30 ildə su ehtiyatlarımız 20 faiz azalıb

## İqlim dəyişikliyinin yaratdığı fəsadlar aradan qaldırılmazsa, 2050-ci ilədək daha 23 faiz azalma ola bilər



İqlim dəyişiklikləri fonunda su çatışmazlığı dünyanın əksər ölkələrinin üzləşdiyi qlobal problemlərdən biridir. Su ehtiyatlarının 70 faizi ölkədən kənarda formalaşan Azərbaycanda da bu sahədə problemlər mövcuddur. Azərbaycan adambaşına düşən suyun həcminə görə, dünya ölkələri arasında 90-cı yerdə qərarlaşıb, su ehtiyatları baxımından isə 140-cı yerdədir.

Statistik məlumatlara əsasən, son 30 ildə Azərbaycanın su ehtiyatı 20 faizə qədər azalıb və 2050-ci ilə qədər daha 15-20 faizə qədər azalacağı ehtimal edilir. BMT-nin İnkişaf Proqramının proqnozlarına görə Azərbaycanda lazımi addımlar atılmazsa, 2050-ci ilədək su resursları daha da azalacaq.

Su çatışmazlığına səbəb olan problemlər arasında sudan səmərəsiz, təyinatı üzrə istifadə olunmaması da daxildir.

Hazırda ölkəmizin su ehtiyatı 25 milyard kubmetrdir. Onun 16,5 milyardı yerüstü, 8,5 milyardı isə yeraltı su ehtiyatıdır. Bu il üçün ölkəmizdə toplanmış suyun həcmi 10,3 milyard kubmetrdir. 2023-cü ildə suyun təxminən 10-15 faiz azalması proqnozlaşdırılır.

Amma iki-üç ayda ölkə ərazisinə düşən yağıntının miqdarı artdığından çayların suyunda artım müşahidə olunur. Bu, su ehtiyatlarının həcmində, həmçinin bu il üçün toplanan suyun miqdarında artımla müşahidə oluna bilər.

### Yağıntılar suvarma suyuna tələbatı azaldıb

"Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin rəsmisi Riad Axundzadə qəzetimizə açıqlamasında bildirib ki, son zamanlarda müşahidə olunan yağışların bir sıra müsbət təsirləri olub.

İlk növbədə su anbarlarında toplanmış suyun həcmi artıb: "Hazırda Araz Su Anbarı istisna olmaqla, digər su mənbələrində toplanmış su ehtiyatları qənaətbəxş hesab oluna bilər. Yağıntıların son dövrlərdə artması əkin sahələrində torpaqlarda müəyyən dərəcədə nəmlik yaradıb. Bu, sahələrdə suvarmanı tam təmin etməsə də, suya olan tələbatın azalmasına gətirib çıxarıb. Bu, mövcud su ehtiyatlarının əkin sahələri arasında daha səmərəli paylanmasına imkan yaradıb".

R.Axundzadə vurğulayıb ki, "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı" ASC-nin təxirəsalınmaz tədbirləri sayəsində Ağcabədi və Beyləqan rayonları ərazisində müşahidə olunmuş sel suları Yuxarı Mil kanalına, oradan da Yeni Xan qızı kanalına istiqamətləndirilib və Ağcabədi rayonunun bir sıra kəndlərinin əkin sahələrinin suvarma suyu ilə təminatı yaxşılaşdırılıb.

Bununla yanaşı, yağıntıların çox düşməsi nəticəsində çaylarda sululuğun artması ilə əlaqədar olaraq bir sıra rayonlarda subartezian quyularının iş rejimlərinə yenidən baxılıb. Bunun sayəsində elektrik enerjisinin istifadəsinə müəyyən dərəcədə qənaət edilib.

Ölkənin əsas su anbarlarında 16,1 milyard kubmetr su ehtiyatı toplandığını deyən ASC rəsmisi qeyd edib ki, bu göstərici keçən ilin müvafiq dövrü ilə müqayisədə 231 milyon kubmetr çoxdur.

### Ötən ay əsas çaylarda sululuq normaya yaxın və ya ondan yüksək olub

Azərbaycanda su təsərrüfatı əsasən transsərhəd çaylar və atmosfer yağıntılardan asılıdır. Son zamanlar yağan yağışlar çaylarımızda vəziyyəti nisbətən yaxşılaşdırıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətinin rəis müavini Rafiq Verdiyev bildirib ki, son illərdə ölkə çaylarında azsululuq müşahidə edilir. Onun sözlərinə görə, iqlim dəyişikliklərinin təsiri nəticəsində son 30 ildə su ehtiyatları 1990-cı illərlə müqayisədə 15 faizə qədər azalıb: "Bu, həm Azərbaycanın su ehtiyatlarının 70 faizini təşkil edən Kür, Araz, Qanıx, həm də yerli çaylarda özünü göstərir. Su ehtiyatlarının ümumən azalmasına baxmayaraq, bəzən iqlim dəyişmələrinin təsirindən təhlükəli hidroloji hadisələr baş verir, çaylardan keçən qısamüddətli sel və daşqın hadisələrinin sayı artır. Bu hadisələr ay ərzində bir neçə dəfə təkrarlandıqda çaylarda sululuğun artmasına təsir göstərir".

Xüsusən yaz aylarının sonunda çaylarda daşqın hadisələrinin sayının artdığını deyən rəis müavini bildirib ki, nəticədə çaylarda sululuq ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxalıb.

O vurğulayıb ki, ötən ay Kür, Qanıx çaylarında, Böyük və Kiçik Qafqazın bəzi çaylarında sululuq normaya yaxın və ya ondan yüksək olub. "Bu, qısamüddətli intensiv yağışlar nəticəsində əmələ gələn sel və daşqınlarla bağlıdır. Ümumən ölkə ərazisində azsululuq dövrü davam edir. Hələ də gursuluAluqdan danışmaq olmaz, yəni 2-3 gün ərzində çayda suyun əvvəlki günlə müqayisədə bir neçə dəfə çox olmasına baxmayaraq, su normadan 30 faizə qədər aşağı olduğuna görə ümumi su ehtiyatları da son illərdə normadan az olur. Bu il də çaylarda su ehtiyatlarının normadan aşağı olması gözlənilir. İqlim dəyişmələri nəticəsində su ehtiyatlarının azalması gələcəkdə sudan daha səmərəli istifadə etməyə çağırır", - deyə R.Verdiyev əlavə edib.

Xidmətin rəis müavini bildirib ki, hazırda Kür çayı ilə ölkəmizə daxil olan su normaya yaxındır, hətta ötən günlərdə normadan artıq olub.

R.Verdiyev qeyd edib ki, həm çayın Qıraqkəsəmən məntəqəsində, həm də Qanıx çayında normadan çox sululuq müşahidə edilib. Bu da Mingəçevir Su Anbarında müəyyən səviyyənin saxlanılmasına kömək etməklə yanaşı, Kürün aşağı axınına su sərfinin ötən illə müqayisədə yüksək olmasına səbəb olub. Xüsusilə Neftçala, Salyan ərazilərində su ehtiyatları 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə artıb.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

İŞİMİZ, GÜZƏRANIMIZ

# "Şahdəniz"in ardınca "Abşeron"

## Yeni mənbələrdən qaz hasil edildikcə Azərbaycanın önəmi də artır

**Azərbaycanın neft-qaz sənayesi tarixində daha bir mühüm hadisə baş verdi. "Abşeron" qaz-kondensat yatağının işlənməsinin İlkin Hasilat Sxemi (İHS) mərhələsi üzrə hasilata başlandı. Azərbaycan qazına tələbatın artdığı, bizdən mavi yanacaq idxal etmək istəyən ölkələrin sayının getdikcə çoxaldığı bir zamanda bu hadisə xüsusi əhəmiyyət daşıyır.**




"Abşeron" yatağı Xəzər dənizinin Azərbaycan sektorunda, Bakıdan təxminən 100 kilometr cənub-şərqdə yerləşir. 2009-cu ildə "Abşeron"un kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) və Fransanın "TotalEnergies" şirkəti arasında saziş imzalanıb. Dənizdə, suyun 500 metr dərinliyində yerləşən "Abşeron" yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 45 milyon ton kondensat həcmində qiymətləndirilir.

"Abşeron" bugünkü uğurlarına çatanadək uzun bir yol gəlib. Belə ki, hələ 1990-cı illərin sonlarında "Abşeron" üzrə digər xarici tərəfdaşlarla kontrakt imzalanmışdı. "Şahdəniz" üzrə müqavilədən sonra bu sənədin imzalanması göstərirdi ki, Azərbaycan təkcə neft diyarı deyil, o, artıq həm də böyük həcmdə qaz hasil edən ölkəyə çevrilir.

Lakin müəyyən müddətdən sonra "Abşeron"un birinci kontraktına xitam verildi. Tərəfdaşlar görkəmli geoloqumuz, akademik Xoşbəxt Yusifzadənin qazılan quyunun yerinin düzgün seçilmədiyi barədə fikri ilə razılaşmadılar. Buna görə də müsbət nəticə əldə edilmədi.

Növbəti addım isə uğurla nəticələndi. Qeyd etdiyimiz kimi, "Total"la saziş imzalandı və bu şirkətin SOCAR-la birgə işi qələbə gətirdi. 2011-ci ilin əvvəlində yataqda Heydər Əliyev adına yarımdalma qazma qurğusu vasitəsilə qazma prosesi başlandı. Sonrakı işlər də qrafik üzrə həyata keçirildi.

2020-ci il sentyabrın 19-da Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda (BDÖZ) "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak etdi. Belə ki, yataqda istismar olunan platformanın dörd əsas dayaq bloku və digər sualtı qurğular bu zavodda "BOS Şelf" şirkəti tərəfindən tikilmişdir. Tikinti işlərinə ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklarının, körpülərin, estakadaların, məşəl sisteminin, sualtı qurğuların, boru xəttinin, modulların inşası və quraşdırılması daxil idi. "Abşeron" layihəsi üzərində iş zamanı "BOS Şelf" şirkəti Azərbaycanda ilk dəfə bütün mühəndislik, təchizat, tikinti, quraşdırma işlərini həyata keçirməklə layihənin tam təminatla təhvil verilməsi üsulunu tətbiq etmişdir.

BDÖZ-də dövlət başçısı "Abşeron" yatağının kəşf edilməsinin əhəmiyyətini vurğulayaraq demişdir: "Beləliklə, bizim neft-qaz potensialımızın inkişafı üçün çox böyük resurs əldə edildi. Bu yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları vardır. Amma mən hesab edirəm ki, daha çox olacaq. Çünki artıq bizdə olan təcrübə onu göstərir ki, ehtimal olunan resurslardan daha böyük resurslar üzə çıxır və 100 milyon ton kondensat - bu da xam neftə bərabər olan bir məhsuldur. Beləliklə, Azərbaycan bundan sonra da etibarlı qaz təchizatçısı olacaqdır. Onu da bildirməliyəm ki, "Abşeron"un birinci mərhələsində çıxarılacaq qaz daxili tələbatlara istiqamətləndiriləcək. Çünki buna da ehtiyac var. Artan əhali, artan sənaye bunu tələb edir. İkinci mərhələdə hasil olunacaq qaz isə ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq. Çünki artıq bu yatağın tam işlənməsi mərhələli yollarla öz həllini tapacaq. Eyni zamanda bizim neft hasilatımızın sabit qalması üçün bu yatağın böyük önəmi var. Çünki 100 milyon ton kondensat - bu da Bakı-Tbilisi-Ceyhan ixrac boru xətti ilə dünya bazarlarına çıxarılacaq. Beləliklə, "Azəri-Çıraq-Günəşli"də mövcud olan və davam edən təbii hasilat tənəzzülünü "Abşeron" yatağı bir qədər kompensasiya edəcək. Ona görə bu, növbəti böyük hadisədir. Bütün bu qurğular Azərbaycanda istehsal olunub".

Həmin vaxt həmçinin bildirilmişdi ki, yataqdan qazın hasilatı üçün quraşdırılacaq platforma öz növünə görə nadirdir. Belə ki, platformanı kənardan, yəni "Neft Daşları"nda yerləşdirilən moduldan idarə etmək üçün innovativ həll yolları işlənilib hazırlanıb. "Abşeron" layihəsində Xəzərdə ilk dəfə "boru içində boru" texnologiyası tətbiq olunacaq.

İndi bunlar reallığa çevrilir. Artıq "Abşeron"un işlənməsinin İlkin Hasilat Sxemi mərhələsi üzrə hasilata başlanıb. SOCAR-ın bu barədə yaydığı məlumatda bildirilir ki, İHS mərhələsi sualtı hasilat quyusunu "Neft Daşları"ndakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. İHS mərhələsinin hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. Qazın Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

Xəzər dənizinin ilk məsafədən idarə olunan platforması olan "Abşeron" İHS layihəsinin qəbul platformasının idarəetməsi "Neft Daşları"nda yerləşən Mərkəzi İdarəetmə Otağından həyata keçirilir.

Xatırladaq ki, JOCAP (Absheron Petroleum Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə SOCAR və "TotalEnergies" hər biri 50 faiz iştirak payına malikdir.

Beləliklə, Azərbaycanın yaratdığı möhkəm beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması getdikcə daha çox bəhrə verir. SOCAR da məhz bunu bəyan edib ki, etibarlı tərəfdaşları ilə birlikdə ölkəmizin böyük enerji potensialının reallaşdırılması və Azərbaycan qazının beynəlxalq bazarlara çatdırılması istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## 6 ayda pensiyalara 2,8 milyard manatdan çox vəsait yönəldilib

**2023-cü ilin 6 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 16 faiz (402 milyon manat) çox olmaqla 2 milyard 843 milyon manat vəsait yönəldilib.**

Bu ilin əvvəlindən reallaşdırılan növbəti sosial islahat paketi çərçivəsində minimum pensiya da fevralın 1-dən 240 manatdan 280 manata çatdırılıb. Keçən il pensiyaçılara verilən maddi yardımlar 2023-cü ilin əvvəlindən onların pensiyaları tərkibinə daxil edilərək pensiyaları artırılıb. Həmin artım tətbiq edildikdən sonra pensiyaların 2022-ci il üzrə orta aylıq əməkhaqqının illik artım tempinə uyğun olaraq 14,7 faiz indeksləşdirilərək artırılması təmin edilib.

Pensiyaların orta aylıq məbləği son 6 ayda 18 faiz artaraq 433 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 17 faiz artaraq 466 manata çatıb.

Bu ilin yanvar-iyun ayları ərzində 18 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən isə 89,5 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## Ağdamda daha bir məhsul istehsal ediləcək

**Ağdamda siqaret istehsal olunacaq. "Trend"in məlumatına görə, bu barədə iqtisadiyyat naziri Mikayıl Cabbarov tvitter səhifəsində bildirib.**




Nazirin sözlərinə görə, "Tabaterra" QSC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib və rezidentlərin sayı 17-yə çatıb. "Şirkət tərəfindən Sənaye Parkının ərazisində investisiya həcmi 40,5 mln.manat olan tütün məmulatlarının istehsalı müəssisəsi yaradılacaq və 300 nəfər işlə təmin ediləcək. Bu layihə Qarabağda iqtisadi fəallığın və məşğulluğun artmasına töhfə verəcək", - nazir qeyd edib.

Xatırladaq ki, hazırda Azərbaycanda 5 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ və Pirallahı sənaye parkları fəaliyyət göstərir. Dövlət başçısının 2021-ci il 28 may tarixli fərmanına əsasən Ağdam, 4 oktyabr tarixli fərmanı ilə Araz Vadisi İqtisadi Zonası sənaye parklarının yaradılması nəticəsində Azərbaycanda sənaye parklarının sayı 7-yə çatıb.

Sənaye parkları sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması və rezidentlər üçün stimullaşdırıcı tədbirlər tətbiqi məqsədi daşıyır.

## "İdarəçiliyi peşə kimi qəbul etməliyik"

**Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov üçüncü "Yüksəliş" müsabiqəsinin final mərhələsinin açılış mərasimində söyləyib.**

Nazir qeyd edib ki, ölkədə idarəçilərin seçiminə aid meyarlar aydındır: "Yüksəliş" müsabiqəsi uzun illər ərzində bu baxımdan rol oynayacaq, öz töhfəsini verəcək. Bu il müsabiqə Ulu Öndərin 100 illiyi kontekstində baş tutur.

Ötən ilin iştirakçılarından 60 faizi bu il də müsabiqədə iştirak edir və onlar arasından finala yüksələnlər var.

"Bu müsabiqə peşəkar müsabiqədir. İdarəçiliyi peşə kimi qəbul etməliyik. İdarəçilikdə olan peşə riskləri şəxsi inkişaf, şəxsi balansın qorunmasıdır. Digərlərindən daha çox çalışıb, daha çox töhfə vermək liderliyin təməl faktorlarından biridir. Bütün iştirakçılara uğurlar arzulayıram. Ən layiqli namizəd qalib gəlsin".

Qeyd edək ki, bu gün başa çatacaq final mərhələsində 109 namizəd iştirak edir. Ümumilikdə Bakı üzrə 73, regionlar üzrə 36 iştirakçı final mərhələsinə keçib. Onlardan 87-si kişi, 22-si qadındır. Finalçılar arasında beynəlxalq, özəl və dövlət şirkətlərində, həmçinin QHT-də çalışan namizədlər yer alır. Finalçılar arasında 21-30 yaş arasında olan iştirakçılar üstünlük təşkil edir. Namizədlərdən 66-sı ötən illərin "Yüksəliş" müsabiqəsinin iştirakçılarıdır.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqə 5 mərhələdən ibarətdir. Dövlətimizin başçısı 2022-ci il dekabrın 20-də üçüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı sərəncam imzalayıb.

## Göstərilən informasiya və rabitə xidmətlərinin dəyəri 13 faizə yaxın artıb

**Dövlət Statistika Komitəsi cari ilin altı ayında informasiya və rabitə sahəsi üzrə məlumatları açıqlayıb.**

Bildirilir ki, bu sahələrdə fəaliyyət göstərən müəssisələr tərəfindən yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə göstərilmiş xidmətlərin dəyəri real ifadədə 12,9 faiz artaraq 1 milyard 42,8 milyon manat təşkil edib ki, onun da 76,4 faizi əhali tərəfindən istehlak olunub.

Əldə edilmiş gəlirin 61,5 faizi qeyri-dövlət sektorunun payına düşüb. Xidmətlərdən əldə edilən gəlirin 38,5 faizi və ya 550,5 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşıb.

## Goranboy kümçüləri yüksək göstəriciyə nail olmuşlar

**İqtisadi cəhətdən gəlirli olan baramaçılığa Goranboy rayonunda da maraq çoxdur. Bu səbəbdən xüsusən son illər baramaçılığın inkişafında vacib olan etibarlı yem bazasının yaradılması üçün konkret tədbirlər görülmüşdür.**

O cümlədən Tap Qaraqoyunlu kəndi ərazisində 3 min yeni tut tingi əkilmiş, Fəxralı və Xan Qərvənd kəndlərində mövcud yem bazası genişləndirilmişdir. Ümumilikdə rayonda son 2 il ərzində 50 mindən çox tut ağacı əkilmişdir. Bütün bunlar nəticəsiz qalmamışdır.

Cari il rayon üzrə kümçülərə 140 qutu ipəkqurdu paylanmışdır. Kümçülər əvvəlki ildən fərqli olaraq bu il daha çox-5 min 600 kiloqram məhsul təhvil vermişlər. Bu işdə Xan Qərvənd kəndində kümçü Adil Şirinov, Tap Qaraqoyunlu kəndində Abbas Allahverdiyev və Fəxralı kəndində Sevda Vəliyeva fərqlənmişlər.



*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Macar şirkəti Ələti seçdi

## Dost ölkənin sərmayəsi hesabına Ələt Azad İqtisadi Zonasında 300 nəfərin çalışacağı zavod tikiləcək



**Xəbər verildiyi kimi, bu günlər Azərbaycan İnvestisiya Şirkəti ilə "Hell Energy" şirkəti arasında Birgə İştirak Müqaviləsi imzalanmışdır. Sənəddə Ələt Azad İqtisadi Zonasının ərazisində Avropa ölkələrinin qabaqcıl texnologiyalarına əsaslanan illik istehsal gücü 700 milyon ədəd alüminium içki qutusu təşkil edəcək (ilkin mərhələdə illik doldurma gücü 415 milyon ədəd alüminium içki qutusu) yeni zavodun tikintisi nəzərdə tutulur. İnvestisiya dəyəri 211 milyon dollar olan layihə çərçivəsində 300-dən çox iş yerinin yaradılması planlaşdırılır.**

Tədbirdə iştirak edən iqtisadiyyat naziri Mikayıl Cabbarov vurğulamışdır ki, qarşılıqlı marağa əsaslanan Azərbaycan-Macarıstan əlaqələri yüksələn xətlə inkişaf edir, iqtisadi-ticarət əməkdaşlığı genişlənir. Macarıstanla ticarət, sənaye, enerji, o cümlədən bərpaolunan enerji, investisiya və digər istiqamətlər üzrə əməkdaşlığın inkişafı üçün böyük perspektivlər var. İqtisadiyyat naziri Ələt Azad İqtisadi Zonasının imkanlarının yerli və xarici investorlar, o cümlədən Macarıstan sərmayədarları üçün geniş imkanlar açdığını bildirərək yeni birgə layihələrin həyata keçiriləcəyinə əminliyini ifadə etmişdir.

Xatırladaq ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektardır. Zonanın ilkin inkişaf mərhələsi olan 60 hektar ərazidə (zona 1, mərhələ 1) tikinti işlərinə başlanılıb və bir sıra işlər görülüb. Belə ki, investorlara icarəyə veriləcək torpaq sahələri inşaat üçün artıq hazırdır. Ümumi sahəsi 297 min kvadratmetr olan torpaq sahələrinin daxilində su, kanalizasiya, işıq, qaz, rabitə şəbəkələrinə birləşmə nöqtələri təmin edilib. Burada həmçinin istifadəyə hazır ərazi-daxili və ərazi-xarici mühəndis-kommunikasiya infrastrukturu yaradılıb. Zona 1 ərazisinin əsas girişində gömrük-keçid məntəqələri, həmçinin gömrük yoxlanışlarının aparılması üçün binalar inşa olunub.

Ələt Azad İqtisadi Zonasının yaradılmasında əsas məqsəd qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməkdir. İnnovativ texnologiyalardan istifadə edərək xidmətlər göstərən investorları cəlb etmək, bu şirkətlərin Azərbaycan şirkətləri ilə əməkdaşlığının təmin olunması nəticəsində ölkə iqtisadiyyatının dinamik və dayanıqlı inkişafına töhfə vermək, həmçinin on minlərlə yeni iş yeri yaratmaq da əsas hədəflərdəndir.

Bu layihənin icrası Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, "Şərq-Qərb" və "Şimal-Cənub" tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan Azərbaycanın strateji əhəmiyyətini daha da artıracaq. Azad iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq. Bir sözlə, Ələt Azad İqtisadi Zonası Azərbaycanı regional investisiya mərkəzinə çevirəcək.

Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonanın ölkəmiz üçün əhəmiyyətini vurğulayaraq demişdir: "Bu zonanın yaradılması ideyasının təməlində bizim siyasətimiz dayanır. Xüsusilə son illər qeyri-neft sektorunun inkişafı ilə əlaqədar görülən işlər bu zonanın yaradılmasına təkan vermişdir. Biz gördük ki, qeyri-neft sektoruna qoyulan sərmayə daha çox dövlət sərmayəsidir, yaxud da ki, yerli şirkətlərin sərmayəsidir. Xarici şirkətlər daha çox neft-qaz sektoruna sərmayə qoymağa meyillidirlər. Ona görə, bu zonanın yaradılması, əminəm ki, Azərbaycanın qeyri-neft sektorunun, iqtisadiyyatımızın qeyri-neft sektorunun inkişafına xidmət göstərəcəkdir. Eyni zamanda burada yaradılacaq infrastruktur investorlar üçün cəlbedici olacaq, ölkəmizə yeni texnologiyalar gələcək, yeni iş yerləri yaradılacaq və burada işləyəcək Azərbaycan vətəndaşlarının əməkhaqqı yüksək olacaq, rəqabətqabiliyyətli məhsul istehsal ediləcək və bizim qeyri-neft sektorumuzun ixrac imkanları genişlənəcək. Çünki bizim ümumi daxili məhsulumuzun strukturuna baxsaq görərik ki, neft sektoru artıq üstünlük təşkil etmir. Ancaq ixraca baxdıqda görərik ki, ixracımızın mütləq əksəriyyəti neft-qaz məhsulları ilə təmin edilir. Ona görə bax burada da islahatların aparılması və xarici investorların xüsusilə sənaye sahəsinə cəlb edilməsi əsas amillərdən biri idi".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Azərbaycanda 1744 minik avtomobili istehsal olunub

**Cari ilin altı ayında Azərbaycanda 1744 və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 687 ədəd çox minik avtomobili istehsal olunub.**

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 2023-sü ilin yanvar-may aylarında 342,3 milyon manatlıq məhsul istehsal edilib, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 34,9, maşın və avadanlıqların istehsalı 10,9 faiz artıb, sair nəqliyyat vasitələrinin istehsalı isə 18,8 faiz azalıb.

Bu dövr ərzində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə traktorların da istehsalı 40,5 faiz artıb.

## Azərbaycan nefti ucuzlaşıb

**Dünya bazarlarında "Azeri Light" (CIF) markalı Azərbaycan nefti cüzi ucuzlaşıb.**

Azərbaycan neftinin 1 barreli üzrə qiyməti əvvəlki günlə müqayisədə 0,46 faiz və ya 0,39 dollar azalaraq 84,10 dollara satılıb.

Qeyd edək ki, 2022-ci ildə "Azeri Light" (CIF) markalı neftin bir barelinin orta satış qiyməti 103,58 dollar olmuşdu. 2021-ci ilin göstəricisi ilə müqayisədə ötən il "Azeri Light" (CIF) nefti 44,6 faiz bahalaşmışdı.





# Mədəniyyət





● Gəzməli, görməli yerlərimiz

## Bakının parkları, bağları gözəl istirahət məkanlarıdır

### Xüsusən də yayın qızmar günlərində bu yerlərin əvəzi olmur

**Paytaxt sakinlərinin çoxu yay aylarında məzuniyyət və istirahət günlərini səmərəli keçirmək üçün Bakıətrafı kənd və qəsəbələrdəki bağ evlərinə, ölkəmizin bölgələrində təbiətin qoynunda yaradılan istirahət məkanlarına, sanatoriya və müalicəxanalara, ya da xarici ölkələrə üz tuturlar.**





Bəs hazırda yayın bu qızmar günlərində Bakıda ailə qayğıları və ya işi ilə əlaqədar harasa gedə bilməyənlər istirahət saatlarını, şənbə və bazar günlərini necə keçirirlər? Onu da qeyd edək ki, yay mövsümündə istər bölgələrdən, istərsə də qonşu xarici ölkələrdən Bakıya gələnlərin də sayı çoxdur. Çünki Bakı və onun ətraf qəsəbələri gündən-günə gözəlləşir, abadlaşır, insanların sosial tələbatının hərtərəfli təmini və istirahətlərinin mənalı keçməsi üçün lazımi infrastruktur yaradılır.

Ta qədimdən Bakının gəzməli, görməli yerlərindən söhbət düşəndə ilk növbədə Xəzərin mirvari boyunbağısı adlandırılan Sahil bağı - Bakı bulvarı yada düşür. 105 ilə yaxın yaşı olan bu bağ Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü və sərəncamına əsasən, 3,5 hektardan genişləndirilərək 16 hektara çatdırılıb. Biz də yolumuzu yeni bulvardan saldıq. Görülən iş, yaradılan şərait göz oxşayırdı. Gəzintidə olanların əksəriyyəti sahil bağının gecə füsunkarlığından, gəzməli və görməli yerlərindən doymurdu. Onlar Vətən müharibəsində qələbəmizdən, ordumuzun rəşadətindən söhbət açan Hərbi Qənimətlər Parkını da ziyarət etməmiş geri dönmürdü. Burada gəzintidə olanlardan biri də Əhmədli qəsəbəsinin sakini, ali dərəcəli həkim-kardioloq Həsən Məmmədovun ailəsi, onun köhnə bakılılardan hesab olunan, 26 ilə yaxın Avropada - Avstriyanın Vyana şəhərində yaşayan qonağı, vaxtilə Əhmədli qəsəbəsinin sakini olmuş Füzulidir. O, həyat yoldaşı Pərvanə xanım, qızları Lalə, Cənnət, nəvələri Rəhimə və Atəşlə Bakıda qonaqdılar. "İstirahətinizi necə keçirirsiniz" sualına əvvəlcə Həsən Məmmədov cavab verdi:

- Bir həftədən çox qonaqlarla birlikdə Qubada, Qəçrəşdə, Nabranda olduq. Gəzdik-dolandıq, əyləndik. İki gündür ki, qayıtmışıq Bakıya. Yeni bulvar bizə yaxındır, demək olar ki, hər gün günortadan sonra bura gəzməyə, uşaqları əyləndirməyə gəlirik. Burada hər cür şərait var, rahat dincələ və əylənə bilirik.

26 il bundan əvvəl Bakıdan Avstriyaya köçən Füzuli kişi və Pərvanə xanım Bakının gözəlliyindən, füsunkarlığından ağızdolusu danışdılar. Şəhərin görməli yerlərini mobil telefonlarına çəkdiklərini göstərdilər. Füzuli kişi dedi:

- Bundan sonra hər il yay aylarında ailəliklə Bakıya gəlməyi, Xəzərin ləpədöyənində, Qubada, Qusarda, Qarabağda, Şuşada, Xankəndidə dincəlməyi qərara almışıq. Çox ölkələrdə olmuşuq, Azərbaycan, Bakı doğrudan da çox gözəldir.

Bakını gözəlləşdirən, onu belə ürəyəyatımlı edən şəhərdə aparılan möhtəşəm quruculuq işləri, ətraf qəsəbələrdə yaradılmış, təmir olunmuş, gözoxşayan mədəniyyət və istirahət parklarıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtda yeni salınan parklarda yaradılan şəraitlə tanış olarkən demişdir: "Son illər ərzində Bakı şəhərində bir çox parklar, ictimai yerlər, istirahət guşələri yaradılmışdır".

Artıq bu parklar, bağlar Bakı sakinlərinin və qonaqların əsl istirahət məkanına çevrilib. Yeni parklardan birində - Heydər Əliyev Sarayının arxasından Akademik Milli Dram Teatrına qədər uzanan park-fəvvarə kompleksində olduq. Günün qüruba gedən çağı, hava bürkülü idi. Parka gələnlərin ardı-arası kəsilmir, əksəriyyəti də yaxın ərazilərdə yaşayan sakinlərdir. Xan çinarın kölgəsində oturacaqda əyləşmiş ortayaşlı Şahlar Səfərovla həmsöhbət olduq. O dedi:

- "Bakı Metropoliteni"ndə işləyirəm. Hər il bu vaxtlar məzuniyyətimi Xəzər çimərliklərində, ya da yaxında yaşadığımdan bu bağda keçirirəm. Bir neçə gün əvvəl məzuniyyətə çıxan kimi getdim ata-baba yurdum Qusarın Avaran kəndinə. Bir həftə orada dincələndən sonra Bakıya qayıtdım. Əvvəlki vaxtlara baxanda indi Bakıda istirahət etməyə, dincəlməyə o qədər yer, yaxşı şərait var ki, heç rayona getməyə, xərc çəkib evindən-eşiyindən olmağa dəyməz. Qusardan söhbət düşmüşkən, Bakıda yaşayan, yazıçı-publisist Elbrus Şahmarla Qusar şəhərinin mərkəzi parkında oxucularla görüşdə tanış oldum. Mənə "Xanimanım Qubadlı" kitabını avtoqrafla hədiyyə etdi.

Bir çox ölkələrdə, şəhərlərdə olmuşam. Amma Bakıda salınan parklar, yaşıllıqlar, istirahət guşələri digər ölkələrdə gördüklərimdən qat-qat üstündür.

Belarusun Mogilyov şəhərində yaşayan və son 20 ildə ilk dəfə Bakıya səfər edən Qalib Süleymanovla Bakının Nəsimi rayonu ərazisindəki Zabitlər parkında görüşdük.

Bura şəhərin ən köhnə parklarından biridir, alman faşizminə qarşı döyüşlərdə həlak olan əsgərlərin xatirəsinə Böyük Vətən müharibəsi illərində salınıb. Müharibədən sonra bu parka iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun adı verilib.

Dörd hektar sahəsi olan Zabitlər parkında yaradılan orijinal işıqlandırma sistemi, əzəmətli daş fəvvarə və bürünc heykəllər göz oxşayır: fikrə dalan şahmatçı öz gedişini planlaşdırır, yaxud çayxana girişində gülərüz çayçı qonaqları salamlayır. Fəvvarənin yaxınlığında, skamyaların birində yorğun "bürünc fotoqraf" oturub. Bir az aralıda bir qız yoldan ötənlərə çiçək satır. Başqa birisi isə "xana-xana" oynayır. Parkda 700 kvadratmetr sahəsi olan qapalı buz meydançası, görünüşü və orijinal dizaynı ilə diqqəti cəlb edən qeyri-adi "buz" kafesi var...

Qalib Süleymanov bunlara işarə edərək dedi:

- Mən Bakının bir neçə görməli-gəzməli istirahət məkanında - Heydər Əliyev Mərkəzində, Rixard Zorgenin adını daşıyan parkda, Dədə Qorqud bağında, köhnə Sovetski ərazisində yaradılan parkda, təzəlikcə istifadəyə verilən "Çəmbərəkənd" parkında olmuşam. Sanki dünyanın hansısa başqa şəhərindəyəm, köhnə parkları tanıya bilmirəm, təzə parklar isə lap möcüzədir. Bu, mənim 20 il əvvəl gördüyüm Bakı deyil. Burada hər şey dəyişib, yollar da, binalar da, parklar və xiyabanlar da. Şəhərdəki quruculuq işləri məni heyran etdi.

Daha sonra Biləcəri qəsəbəsindəki mədəniyyət-istirahət parkına yollanırıq. Sovet dönəmindən qalma bu mədəniyyət-istirahət parkı əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilib. Prezident İlham Əliyevin Bakıətrafı kənd və qəsəbələrdə abadlıq və quruculuq işlərinə dair verdiyi tapşırıqların icrası ilə əlaqədar yenidən qurulan bu parkda yerli arxitektura elementlərini özündə əks etdirən mədəniyyət mərkəzinin binası yenidən tikilib. Sovetlər dönəmində Dəmiryolçular parkı kimi tanınan bu park da sakinlərin rahat istirahəti üçün lazımi avadanlıqlarla təchiz edilib. Parka axşamçağı gələnlər daha çox olur.

Beləcə, Bakı parkları gözəl, mənalı istirahət mərkəzinə çevrilib.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Ustad sənətkarlar

## Onun yarada bilmədiyi obraz yox idi

**Xalq tərəfindən sevilirdi. Məşhur idi, amma xoşbəxt deyildi. İnsanları güldürməyə çalışan, düşündürən bu böyük sənətkarın içində "dağ" boyda dərdi vardı. Sankı özünü ifadə etmək üçün yox, özünü "gizlətmək" üçün "aktyorluq" edirdi. Onun rol aldığı tamaşaları izləmək üçün teatrlara bilet elə də asan tapılmazdı. Bir sözlə, dövrünün 3-5 istedadlı aktyorundan biri idi desək, qətiyyən mübaliğə etmiş olmarıq. Onu səhnəmizin, Azərbaycan mədəniyyətinin aslanı da adlandırırdılar. Sadəcə olaraq, o, Səyavuş Aslan idi.**







Azərbaycan realist aktyor məktəbinin nümayəndələrindən biri, komik, faciə və dramatik rolların məharətli ifaçısı, Azərbaycan SSR Xalq artisti, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif olunan Aslanov Səyavuş Məmmədağa oğlu 1935-ci il sentyabrın 5-də Bakının Saray kəndində sürücü ailəsində dünyaya göz açıb. Anası Anaxanım evdar qadın idi. Bu o illər idi ki, SSRİ-nin repressiya maşını insanları məhşər ayağına çəkib üyüdürdü. İnsanlar təkcə düşüncəsinə görə yox, gördüyü yuxulara görə də gedər-gəlməzə göndərilirdi. Belə bir zamanda cütlük yeni dünyaya gələn körpəyə Səyavuş adını verdi. Adının mənası "atlı" deməkdir. Bəlkə də övladlarını xilaskar "ağ atlı oğlan" obrazında görmək arzusunda olan valideynləri ona bu adı vermişdilər?

Bu körpənin dünyaya gəlişi, repressiya illərinə, uşaqlıq illəri isə müharibənin gərgin vaxtına düşmüşdü. Valideynlərinin musiqiyə olan marağına uyğun olaraq Səyavuş hər gün dərsdən sonra "Pionerlər evi"nə gedər, tar çalmağı öyrənərdi. Başqa bir dram dərnəyinə gedən Hacıağa adlı dostu isə Səyavuşla hər görüşündə ona "səhnə həyatından" danışardı. Dostunun danışdığı həyat hekayələri Səyavuşa daha maraqlı gəlirdi. Belə ki, özünü səhnədə, geniş tamaşaçı kütləsi qarşısında, gurultulu alqışların əhatəsində hiss edirdi. Sanki içində bir səs ona "bu yol ilə" get deyirdi.

Bir gün Səyavuş dostu Hacıağaya qoşulub dram dərnəyinə yollandı. Beləliklə, Səyavuş Aslanın səhnə həyatı başladı. Özünü axtaran Səyavuş özünü teatrın səhnəsində tapdı. 1947-1953-cü illərdə Atamoğlan Rzayevin, Ağadadaş Qurbanovun, Qurban Musayevin, Ağasəlim Manaflının dram dərnəklərində çıxış etdi. 1954-cü ildə az müddət musiqili komediya estrada truppasında, 1958-ci ildə Quba Dövlət Dram Teatrında çalışdı. 1959-cu ildə Bakıya qayıdan Səyavuş Aslan Azərbaycan Dövlət Musiqili Komediya Teatrının yardımçı heyətinə işə qəbul olundu. Elə həmin il Ağası Məşədibəyovun "Toy kimindir?" tamaşasında Qoşun rolunu uğurla ifa etdiyinə görə aktyor heyətinə qəbul edildi.

Səyavuş teatrda işləyərkən Lütfəli Abdullayevin pərəstişkarı olur. Hətta aktyorun oynadığı bütün rolların sözlərini əzbər bilirdi. Səyavuşun bu bacarığı bir gün teatrı düşdüyü ağır durumdan da çıxarır. Bir gün "Arşın mal alan" tamaşasının premyerası zamanı Lütfəli Abdullayev xəstələnir. Səyavuş teatrın rəhbəri Ələsgər Şərifovdan xahiş edir ki, Vəli rolunu əzbər bildiyi üçün ona Lütfəlini əvəz etməyə icazə versin. Vəli obrazında səhnəyə çıxan Səyavuş Aslan Lütfəli Abdullayevi təlqin etməklə tamaşaçılarda xoş ovqat yaradır.

Görkəmli aktyor 1959-1984-cü illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında, 1984-1994-cü illərdə isə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında aktyor kimi çalışır.

1994-cü ildə Azərbaycan Dövlət Musiqili Komediya Teatrına bədii rəhbər təyin edilən Səyavuş Aslan 1996-cı ildə yenidən Akademik Milli Dram Teatrına qayıdaraq ömrünün sonunadək taleyini bu sənət ocağı ilə bağlayır. O, həmişə səhnədə ifa tərzinə xüsusi incəliklərlə yeni çalarlar əlavə edib, çıxışlarını teatrsevərlər və kinosevərlər üçün estetik zövq mənbəyinə çevirməyi bacarıb.

Aktyor öz peşəsinin ustası idi. Onun oynaya bilməyəcəyi rol yox idi. Səyavuş Aslan səhnə həyatı verdiyi "Hamlet", "Böyük Romul", "Ah, Paris, Paris", "Mənim sevimli dəlim", "Hicran", "Poçt şöbəsində xəyal", "Varlı qadın", "Sevgililərin cəhənnəmdə vüsalı", "Bizim qəribə taleyimiz" və digər teletamaşalarda yaratdığı bir-birindən yaddaqalan obrazlar qalereyası ilə böyük tamaşaçı sevgisi qazanıb. Sənətkar kimi o özünü dünya dramaturgiyasında, klassik dramaturgiyada sınağa çəkərək uğurlu nəticə əldə edib. Görkəmli səhnə xadimi Səyavuş Aslan həm də məşhur kino ustası olub. Onlarla filmdə müxtəlif xarakterli obrazlar qalereyası yaradıb. Onun "Aktrisanın təbəssümü", "Bankir adaxlı", "Belə lazımdır", "Bəyin oğurlanması" "Bizim qəribə taleyimiz", "Cin mikrorayonda", "Dəvətnamə", "Evlənmək istəyirəm", "Əhməd haradadır?", "Əzablı yollar", "Fırıldaqçı", "Girişmə, öldürər!", "Hacı Qara", "Xüsusi vəziyyət", "Köç", "Qayınana əməliyyatı" , "Qəm pəncərəsi", "Qırmızı qatar", "Mənim ağ şəhərim", "Musiqi müəllimi", "Nakəs", "O dünyadan salam", "Romeo mənim qonşumdur", "Sabiqlər", "Sevdagül və Şarlotta", "Sehrli çıraq", "Ulduz", "Üzr istəyirəm", "Yaxşı qurtardıq", "Yay gününün xəzan yarpaqları", "Yeganə çıxış yolu", "Yol əhvalatı", "Yuxu" filmlərində yaratdığı rəngarəng obrazlar Azərbaycan kinosunun ən nadir incisi sayıla biləcək qədər mükəmməldir, yaddaqalandır. Bu obrazlar əsl sənət nümunəsi olmaqla əbədiyaşarlıq hüququ qazanmış bədii nümunələrdir.

2013-cü il iyunun 27-də dünyasını dəyişən unudulmaz sənətkarımız Səyavuş Aslan yaratdığı parlaq obrazlar qalereyası ilə sənətsevərlərin qəlbində, o cümlədən teatrımızın, kinomuzun tarixində əbədi olaraq qalacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

● Xəbər

## Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi ilə bağlı fotosərgilər keçirilir

**Azərbaycanın mədəniyyət mərkəzi, Qarabağın baş tacı olan Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi ilə bağlı növbəti tədbir keçirilib. Belə ki, iyulun 8-də bununla əlaqədar Gürcüstanın Bolnisi rayonunda "Qafqaz" Hüquq və İnteqrasiya Mərkəzinin dəstəyi ilə fotosərgi açılıb.**




Sərgi Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə "Uşaq və Yeniyetmələrə Dəstək" (UYD) İctimai Birliyi tərəfindən icra edilən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa fotolarda adlı beynəlxalq fotoqrafiya layihəsi çərçivəsində reallaşıb.

Məlumata görə, elə həmin gün eyniadlı sərgi Gürcüstanın Marneuli rayonunda da açılıb. Sərgi Marneulidəki "Azərbaycan Evi" və Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin təşkilati dəstəyi ilə təşkil olunub. Sərgi iştirakçılarına layihə çərçivəsində hazırlanmış açıqcalar paylanılıb.

Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində isə iyulun 9-da Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilməsi ilə əlaqədar fotosərgi açılıb.

Sərgilənən fotolarda füsunkar Şuşa şəhəri, Şuşanın mədəni irsi, musiqiçiləri barədə məlumatlar əks olunub.

Gənclər Fondunun "Şuşa ili" ilə bağlı elan etdiyi qrant müsabiqəsinin qalibi olan bu layihə Şuşanın tarixi, mədəni irsi, erməni vandalizmi, gənclərin qayıdışa motivasiya olunması və Şuşada aparılan bərpa-quruculuq işləri ilə bağlı məlumatlılığın fotolar vasitəsilə artırılaraq həyata keçirilməsi ideyasına xidmət edir.

Tədbirlərin keçirilməsində məqsəd Azərbaycan, Gürcüstan və Türkiyədən olan gənc fotomüxbirlər vasitəsilə Şuşanın tarixinin və mədəni irsinin yerli, türk və gürcü gəncləri arasında təbliğ olunmasıdır.

Sözügedən layihə çərçivəsində Bakı, Tbilisi, Marneuli, Bolnisi, İstanbul, Eskişehir və Antalya şəhərlərində Şuşanı əks etdirən fotolardan ibarət 9 sərginin açılması nəzərdə tutulub.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● El sənətkarlığı

## Lahıclı misgərlərin sənət nümunələri dünyanın ən mötəbər muzeylərinin qiymətli eksponatları sırasındadır

**Misgərlik sənətinin əsas mərkəzi hesab olunan Azərbaycanda bu qədim sənət növünün tapılan ilk nümunələri Neolit dövrünə təsadüf edir. Mis üzərində oyma sənətinin inkişaf etdiyi Orta əsrlərdə artıq bir sıra böyük şəhərlər misgərlik mərkəzi kimi tanınırdı.**



Tarixi mənbələrdə qeyd olunur ki, Şərqdən Şimali Azərbaycana gətirilən misgərlik sənəti sonralar cənuba - İrana keçib, oradan isə Orta Asiya respublikalarına yayılıb. Mis dövründən cilalana-cilalana bugünədək yol gələn bu qədim sənət növü indi də öz əhəmiyyətini itirməyib.

Azərbaycanlı ustaların misdən hazırladıqları, mürəkkəb və incə naxışlarla bəzədikləri məmulatlar Türkiyə, Orta Asiya, Dağıstan, Gürcüstan, İran və digər ölkələrdə uzun illər ərzində tanınaraq şöhrət qazanıb. Bu fikirləri deməyə əsas verən amil azərbaycanlı sənətkarların hazırladıqları Avropa və Rusiya muzeylərində saxlanılan sənətkarlıq nümunələridir. Zamanında mis məmulatlar üzərində işləyən sənətkarlar öz damğalarını hazırladıqları əşyalar üzərinə həkk etdikləri üçün dünya muzeylərində saxlanılan Azərbaycan mədəniyyətinin bu təkrarolunmaz incilərini başqa xalqların adına yazmaq mümkün olmamışdır. Misdən hazırlanan əl işlərinin 40-dan artıq növü olub və beş qrupda ümumiləşdirilib: xörək, süfrə, su, ağartı qabları və məişət əşyaları.

Azərbaycanda misgərlik sənətinin mərkəzləri Təbriz, Gəncə, Naxçıvan, Şamaxı, Bakı, Ərdəbil, Lahıc (İsmayıllı) və digər məkanlar olmuşdur. XIX əsrdən başlayaraq Lahıc Azərbaycanda misgərliyin əsas mərkəzinə çevrilmişdir. Lahıclı ustaların misdən hazırladıqları, mürəkkəb və incə naxışlarla bəzədikləri dolça, satıl, sərnic, məcməyi, sərpuc, güyüm, aşsüzən, kəfkir, kasa, cam, qazan, çıraq və sair məmulatlar özünəməxsusluğu ilə seçilir.

Lahıclı ustaların hazırladığı mis qab-qacaq yerli sakinlərin evlərinin bəzəyi olduğu kimi, dünyanın sayılıb-seçilən muzeylərinin də qiymətli eksponatı sayılır. Təsadüfi deyil ki, dünyanın ən məşhur muzeylərindən, ən çox ziyarətçini qəbul edən Luvr sənət muzeyində lahıclı ustaların sənət nümunələri nümayiş olunur. Berlində Azərbaycan silah ustalarının ornamentlərlə bəzədilmiş tüfəng, qılınc və xəncərləri sərgilənir.

Lahıcda mis istehsalının ənənəvi üsulları bu gün də qorunub saxlanılır.

2015-ci ildən Lahıcın misgərlik sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir. Lahıc misgərlik sənətinin UNESCO-nun siyahısına daxil edilməsi Azərbaycan xalqının qədim mədəniyyət ənənələrinin qorunub saxlanmasına, gələcək nəsillərə ötürülməsinə, eləcə də qədim qəsəbənin sosial-iqtisadi inkişafına töhfə verməklə ölkəmizə gələn turistlərin ən çox üz tutduqları məkana çevirməkdədir.

*E.QƏNİYEV,*
*"Azərbaycan"*




## Elektromobillər 10 dəqiqəyə şarj olunur



"Toyota" şirkəti elektromobil batareyalarının çəki, ölçü və qiymətini aşağı salacaq texnologiya reallaşdırıb. Yeni texnologiya sayəsində elektromobillər enerjini daha tez yığacaq və daha çox məsafə qət edəcəklər. Şirkət bərk batareyaların hazırlanmasında istifadə edilən materialın istehsal prosesini sadələşdirməyi də bacarıb.

Verilən məlumata görə, 1200 km yol qət etmə bacarığına sahib olacaq yeni nəsil elektromobillər bu texnologiya vasitəsilə 100 faiz enerjini 10 dəqiqəyə yığa biləcək. Maye elektrolitə sahib litium-ion batareyalardan fərqli olaraq, bərk batareyalarda yanma riski daha aşağıdır.

"Toyota" yeni texnologiya əsasında hazırlanacaq batareyaların kütləvi istehsalına 2027-ci ilə kimi başlayacaq. Şirkətin hansı elektromobillərinin yeni nəsil batareyalara sahib olacağı isə hələlik bilinmir.

## "Apple" yeni patent əldə edib



"Apple" şirkəti ABŞ-nin Patentlər və Əmtəə Nişanları İdarəsindən yeni patent əldə edib. Şirkət hazırda "Apple Watch"un və ya onun komponentlərinin istifadəçinin sinə və ya ayaq nahiyəsinə bərkidilməsi üçün nəzərdə tutulmuş xüsusi band üzərində çalışır. Yeni band nəticəsində smart saatın ölçmə nəticələri daha dəqiq olacaq.

Fotolara əsasən demək olar ki, patentləşdirilmiş məhsul adi yara bandını xatırladır. Smart saatın gövdəsi ilə birləşmək üçün band xüsusi interfeysə sahibdir. Ürəyə yaxın bərkidilməsi ürək döyüntülərinin ölçülməsini və elektrokardioqrafiya nəticələrini daha da dəqiq edir. Bandın əsasını kley əsaslı elastiki material təşkil edir. Məhz onun hesabına bandı dəriyə birləşdirmək olur. Belə halda bandın əks tərəfində smart saat yerləşməlidir.

"Apple"ın yeni məhsulunun nə zaman satışa çıxarılacağı hələlik məlum deyil.

## "Windows 12" gələn il təqdim ediləcək




"Microsoft" 2024-cü ildə "Windows 12" əməliyyat sistemini təqdim edəcək. Növbəti əməliyyat sistemi gələn ilin payızında istifadəyə veriləcək. Onun geniş miqyasda yayılmasına isə startın 2025-ci ildə verilməsi gözlənilir.

Hazırda şirkət "Windows 12" üçün bir neçə dizayn üzrə təcrübələr aparır. Məlumata əsasən, aparılan təcrübələrdə yeni iş masası və üzmə effektli taskbar (tapşırıqlar zolağı) test edilir. İdeyanın məğzi ondadır ki, taskbar sanki iş masasının üzərində üzəcək.

"Microsoft" "Windows 12"ni Arm prosessorlu kompüterlər üçün daha yaxşı optimizasiya edəcək.

## Uçan avtomobil hazırlanır

Artıq on ildir ki, tıxaclardan bezmiş vətəndaşlara uçan avtomobil yaradılacağı vəd edilir. Dünyada bu texnologiya möcüzəsini inkişaf etdirən 600-ə yaxın startap var. Artıq bir neçə aktiv prototip havada uçsa da, onların heç biri istehsala buraxılmayıb. Çünki uçan avtomobildə konstruktiv olaraq bir-biri ilə uyğun gəlməyən çoxlu elementləri birləşdirmək lazımdır. Əsas ziddiyyət ondan ibarətdir ki, uçan avtomobil yığcam və eyni zamanda uçuş rejimi üçün böyük qanadı olmalıdır.

"Alef Aeronautics" layihəsi üçün məşhur investor Tim Draper 3 milyon



dollar sərmayə qoyub. Sahibkarlar lüks "Bugatti" və "Jaguar" üçün interyer hazırlayan dizayn mütəxəssisi Hiraş Razagini bu işə dəvət ediblər.

Ötən ilin payızında "Alef Model A" üçün artıq ilkin sifarişlər qəbul edilib. "Alef Aeronautics"in baş direktoru Cim Duxovnı bildirib ki, startap ABŞ Federal Aviasiya Administrasiyasından uçuşa yararlılıq sertifikatı alan ilk belə startapdır. Bu o deməkdir ki, şirkət sınaqlarına başlaya bilər. Əvvəlcədən sifariş üçün ödəniş etmiş potensial alıcılara 2025-ci ilin dördüncü rübündə texnologiya möcüzəsi alacaqları vəd edilir.

Eynək qutusunu xatırladan uçan avtomobil 160 kilometr uçmağa qadirdir. Təkər rejimində o, asfaltda 322 kilometr məsafə qət edə bilər.

İlk alıcılar avtomobilə 300 min dollar ödəyəcəklər.

## "Shazam"dan yeni funksiya



"Apple" mahnıların adlarının axtarılmasına kömək edən "Shazam"ın yeni, faydalı funksiyasını anons edib. Belə ki, bundan sonra o, TikTok, instaqram və yutub kimi sosial şəbəkə platformalarındakı mahnıların adlarını təyin edə biləcək. Bunun üçün istifadəçi "Shazam"da axtarış prosesini işə salıb yuxarıda adları qeyd edilmiş servislərdən birinə daxil olaraq müvafiq videonu seçəcək. Proqram isə öz növbəsində oynadılan videodakı mahnıya smartfonun mikrofonu vasitəsilə qulaq asaraq adını təyin edəcək.

## Xəstəxanalarda yeni test tətbiq ediləcək

Quqlun "Med-PaLM 2" süni zəka əsaslı çatbotu ABŞ-nin bir neçə xəstəxanasında test edilir. Tibbi sualların cavablandırılması üçün nəzərdə tutulmuş bu çatbot səhiyyə xidmətlərinin məhdud olduğu ölkələrdə xüsusən faydalı ola bilər.

"Med-PaLM 2" tibbi mütəxəssislər tərəfindən yaradılmış və təqdim edilmiş nümunələr vasitəsilə təlimatlandırılıb. Çatbot tərəfindən tərtib edilən cavablarda dəqiqliklə bağlı bəzi problemlər olsa da, tərtibatçılar tezliklə onları aradan qaldıracaqlarını bildiriblər.

## Qatlanan ekranlı notbuk



"Apple" qatlana bilən ekranlı cihaza sahib olmayan böyük şirkətlərdən biridir. Şirkət hazırda elastik ekrana sahib "MacBook" üzərində çalışır. O, yeni cihazın istehsalı üçün komponent istehsalçıları ilə danışıqlar aparır.

Notbuklar üçün nəzərdə tutulmuş böyük ölçülü qatlana bilən ekranların istehsal prosesi qəliz olsa da, onlar smartfonlar üçün olan ekranlardan daha gəlirlidir.

Məlumata əsasən, "Apple" elastikli "MacBook"u 2025-ci ildə təqdim edəcək, 2026-cı ildə isə satışa çıxardacaq.

## "Lenovo"un oyun planşeti




2023-cü ildə müxtəlif qiymət kateqoriyasına aid xeyli planşet modeli satışa çıxsa da, oyun planşetləri demək olar ki, 1,5 ildir yenilənmirdi. İndi isə "Lenovo" yeni oyun planşetini təqdim etməyə hazırlaşır. Söhbət "Lenovo Legion Y700" planşetindən gedir.

Şirkətin məlumatına görə, planşet iyulun 22-si təqdim ediləcək. Yeni planşet "Snapdragon 8+ Gen 1" prosessoru və 12/16 GB RAM ilə təchiz olunacaq. 8 düym ölçülü ekrana sahib planşetin "Android 13" vasitəsilə çalışacağı güman edilir.

## Smart üzük



"Samsung" şirkəti yeni, qeyri-adi cihaz üzərində çalışır. Söhbət "Galaxy Ring" adlı smart üzükdən gedir. Smart üzük "Galaxy Watch" kimi ürək döyüntülərinin, stres səviyyəsinin ölçülməsini və insan səhhətinin müəyyən göstəricilərini ölçə biləcək. "Samsung" smart üzük barədə ilk dəfə hələ 2015-ci ildə məlumat vermişdi. Həmin vaxt bildirilmişdi ki, üzük smart ev cihazlarının idarəsini reallaşdırmağa və səhhətin müəyyən göstəricilərini monitorinq etməyə imkan verəcək. "Galaxy Ring"in təqdimat tarixi hələlik məlum deyil.

## Yutubdan yenilik

Yutub tərtibatçıları yeni funksiya üzərində çalışırlar. Videoservis üçün hazırlanan funksiya izləyicilərin bu və ya digər videoda əks olunan mövzunu nə dərəcədə yaxşı başa düşdüklərini yoxlamağa imkan verəcək. Süni zəka tərəfindən tərtib olunan test məqsədli sorğular hələ ki, sosial medianın yalnız mobil tətbiqində test edilir.

Tərtib edilən testlər izlənilən bu və ya digər videoda əks olunmuş mövzunun nə dərəcədə yaxşı anlaşıldığını yoxlayacaq. Məcburi olmayan sorğudan yan keçmək qərarına gəlincə, sorğunun alt hissəsində izlənilmiş videonun linki yerləşdiriləcək. Bunun sayəsində videoya geri qayıtmaq və onda əks olunan mövzu barədə əlavə məlumat əldə etmək mümkün olacaq.

Qeyd etmək lazımdır ki, bu təcrübə yutubun istifadəçi kütləsinin kiçik bir hissəsini əhatə edir və videoservisin həm Android, həm də iOS üçün nəzərdə tutulmuş mobil tətbiqində aktivdir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*
*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |


AZƏRBAYCAN
ABŞ-dan İlham Əliyevin sülh gündəliyinə tam dəstək
Brüsseldə Prezident İlham Əliyevin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişellə görüşü olub
Lider örnəyi
Parlamentin növbədənkənar sessiyası başa çatdı
Ermənistan region üçün problemə çevrilib
Hayastan sülh müqaviləsi imzalamağa məcburdur

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# "Qayıdış könüllüləri" Talış kəndində "Kod Qarabağ" intellektual oyunu keçiriblər






"Qayıdış könüllüləri" proqramının "Ağdam könüllüləri" qrupu tərəfindən "Heydər Əliyev İli" çərçivəsində Tərtərin Talış kəndində Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunmuş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin, Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin, Azərbaycan Respublikasının Gənclər Fondunun, Azərbaycan Könüllü Təşkilatları İttifaqının dəstəyi və "Böyük Qayıdış" Gənclər Təşkilatının təşkilatçılığı ilə uşaq, yeniyetmə və gənclər üçün "Kod Qarabağ" məntiqi-intellektual komanda oyunu keçirilib. İntellektual oyunun keçirilməsində məqsəd Qarabağı, işğaldan azad olunmuş əraziləri gənclərə daha yaxından tanıtmaq, şanlı zəfər tariximizi onlar arasında təbliğ etmək və Talış kəndində məskunlaşan yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkil edilməsi olub.

AZƏRTAC xəbər verir ki, könüllülərin də iştirakı ilə ümumilikdə 30 nəfər yeniyetmə və gəncin 6 komanda şəklində qatıldığı oyunda iştirakçılara Qarabağ, 44 günlük Vətən müharibəsində qazanılan tarixi Qələbə, həmçinin "Heydər Əliyev və Qarabağ" mövzularında şifrəli suallar təqdim olunub. Üç mərhələdən ibarət oyunda ən çox suala düzgün cavab verən "Suqovuşan" komandası gərgin keçən mübarizənin qalibi elan olunub. "Dəmir yumruq" və "Zəfər" komandaları müvafiq olaraq ikinci və üçüncü yerləri tutublar. Qaliblər mükafatlandırılıb, onlara sertifikat və hədiyyələr təqdim edilib.

"Qayıdış könüllüləri" tərəfindən Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti ilə birlikdə "Heydər Əliyev İli" çərçivəsində Talış kəndində yaşayan uşaq, yeniyetmə və gənclər üçün həyata keçirilən fəaliyyət planına uyğun olaraq bu kimi maraqlı məzmunlu, müxtəlif tədbirlərin bundan sonra da davamlı olaraq hər ay keçirilməsi nəzərdə tutulub.

Qeyd edək ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən işlərə gənc nəslin, xüsusilə də kökləri bu torpaqlara bağlı olan gənclərin daha geniş cəlb olunması çağırışına uyğun olaraq həyata keçirilən "Qayıdış könüllüləri" proqramının əsas məqsədi, işğaldan azad olunmuş ərazilərdə könüllülük fəaliyyətini dəstəkləmək, əslən həmin bölgələrdən olan gənclərin öz doğma torpaqlarında yenidənqurma və bərpa işlərində, eləcə də bölgənin tarixi, mədəniyyəti və xalqımızın irsinin təbliğində iştirakını təşviq etmək və gənclərin azad olunmuş ərazilərə qayıdışına töhfə verməkdir.

Proqram çərçivəsində könüllülərin işğaldan azad olunmuş ərazilərdə müxtəlif könüllü fəaliyyətlərində, o cümlədən mütəmadi olaraq bu ərazilərdə keçiriləcək tədbirlərin təşkilində iştirak, buraya səfər edən yerli və xarici qonaqlarla iş, qayıdışa hazırlıq, bərpa və yenidənqurma işlərinə, məskunlaşmaya dəstək, həmçinin Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərdə müvafiq xüsusi nümayəndəliklərinə müxtəlif fəaliyyət istiqamətləri üzrə könüllü dəstəyinin göstərilməsinə cəlb olunmaları nəzərdə tutulub. Hazırda proqram çərçivəsində "Şuşa könüllüləri", "Ağdam könüllüləri" və "Zəngilan könüllüləri" qrupları formalaşdırılıb. Növbəti mərhələdə işğaldan azad olunmuş digər inzibati ərazi vahidlərinə uyğun olaraq könüllü qruplarının yaradılması planlaşdırılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin İntizam komissiyasının sədri Eldar İbrahimov və komissiyanın üzvləri Milli Məclisin deputatı
**MADƏR MUSAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev ailəsi ilə birlikdə Milli Məclisin deputatı, görkəmli ictimai xadim
**HACI MADƏR MUSAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Milli Məclisinin deputatı
**HACI MADƏR MUSAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azəraqrartikinti" ASC-nin kollektivi Milli Məclisin deputatı, görkəmli ictimai xadim
**HACI MADƏR MUSAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin rəisi İlqar Abbasov Milli Məclisin deputatı
**MADƏR MUSAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə Azərbaycan Respublikası Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevə əzizi
**ZÜLEYXA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzliyə əzizi
**SONA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əhməd Əhmədzadə Azərbaycan Respublikası Milli Məclisinin deputatı
**HACI MADƏR MUSAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Milli Məclisin deputatı
**MADƏR MUSAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Kristal-Abşeron" Şirkətinin təsisçiləri Məhayət Nəbiyev və Elbrus Nəbiyev Milli Məclisin deputatı, görkəmli ictimai xadim
**HACI MADƏR MUSAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Aqibət Məmmədov və Vasif İsmayılov ailəsi ilə birlikdə Milli Məclisin deputatı, görkəmli ictimai xadim
**HACI MADƏR MUSAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 5015**
**Sifariş 1724**

**Qiyməti 40 qəpik**